

**Pyer Benolyel:** "Azərbaycan irqçiliyin, antisemitizmin olmadığı yeganə ölkədir"

5

# Səs

№ 062 (6503) 12 aprel 2022-ci il. Qiyməti 60 qəpik

## 11 aprel 2018-ci il - Ötən 4 il sübut etdi ki, xalq öz seçimində yanılmayıb

3



İlham Əliyev: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq"

## GMO məhsullar insanlara və ölkələrə nə vəd edir?

Transgen məhsullar sağlamlığa zərərli, milli və dövlət təhlükəsizliyi üçün təhlükədir

14




4



## Tvinninq layihəsi başa çatıb




6

### Ceyhun Bayramov və Ararat Mirzoyan arasında telefon danışığı olub

11 aprel 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan Respublikasının xarici işlər naziri...



## Ermənilərdən

ŞOK TƏXRİBAT - 13 post Azərbaycan Ordusunun nəzarətinə keçib

## Evi olmayanlara

ŞAD XƏBƏR AÇIQLANDI!





12

## QARABAĞ

atları tarixin yaddaşında



## Maska ləğv edilir?

16




### Avropa iki seçim qarşısında: Makron, yoxsa Le Pen?

10

Məlum olduğu kimi, Fransada növbəti prezident seçkiləri keçirildi və seçkilərin ilk turunda hazırkı prezident...



### "Brüssel görüşündə əldə olunanlar sülhə doğru atılan növbəti addımdır"

13

"Brüsseldə keçirilən üçtərəfli görüş Cənubi Qafqazda sülhə doğru atılan addım kimi dəyərləndirilir. Eyni zamanda, ötən ilin...

# Azərbaycanda din-dövlət münasibətləri yüksək səviyyədədir

## Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib



**Prezident İlham Əliyev dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib.**

Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu din-dövlət münasibətləri yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülüb və görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir. Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlətimizin başçısına məlumat verərək bildirdi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. İnstitutda bakalavriat səviyyəsi üzrə "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları, magistratura səviyyəsi üzrə (dinşünaslıq ixtisası üzrə) "Dinin sosiologiyası", "Dinin psixologiyası", "Dinlərin tarixi" və "İslamşünaslıq" ixtisaslaşmaları, doktorantura səviyyəsi üzrə isə (fəlsəfə doktoru üzrə) "Dinşünaslıq", "Dinin tarixi və fəlsəfəsi" ixtisasları tədris olunur.

Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur. Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.





### Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

## Türkiyə mediası: Böyük Zəfər bölgədə davamlı sülhün yaranmasına təkan verib!




Azərbaycanın irəli sürdüyü sülh şərtlərinin Ermənistan rəhbərliyi tərəfindən qəbul edilməsi Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən qlobal aktual mövzu olaraq geniş şəkildə işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, "TRT Haber" telekanalı aprelin 10-da səhər saatlarının xəbər buraxılışlarında mövzu ilə bağlı xüsusi reportaj yayımlayıb. Reportajda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı rəşadətli qələbə, işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri əsasında Qarabağa böyük qayıdış, Türkiyə-Azərbaycan müttəfiqliyi, eləcə də aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü barədə orijinal kadrlar əksini tapıb. "TRT Haber" telekanalı, Anadolu Agentliyi, "Yeni şafak" qəzeti və digər nüfuzlu media qurumlar türkdilli ictimaiyyətin diqqətinə çatdırıblar ki, Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla dövlətlərarası münasibətlərin qurulması üçün beş prinsipdən ibarət təqdim edilən sənədin Ermənistan tərəfinin qəbul etdiyini bildirib. Türkiyə mediası əsaslandırır ki, böyük Zəfər bölgədə davamlı sülhün yaranmasına təkan verib.




## Baş nazir Əli Əsədov Finlandiya və Litvanın statistika qurumlarının rəhbərləri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 11-də Finlandiya Respublikası Statistika İdarəsinin Baş direktoru Markus Sovala və Litva Respublikası Statistika Departamentinin Baş direktoru Yurate Petrauskiene ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanda statistika sahəsində islahatların aparıldığı, milli statistika sisteminin ölkədə və beynəlxalq aləmdə cərəyan edən sosial-iqtisadi proseslərə və müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirildiyi qeyd edilib.

Bakıda keçirilən "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" tvinninq layihəsinin yekunlarına həsr olunmuş konfransın əhəmiyyəti vurğulanıb.

Layihə çərçivəsində ölkəmizdə biznes statistikası sahəsinin müxtəlif istiqamətlərinin təkmilləşdirilməsi, o cümlədən kiçik və orta biznes üzrə statistik məlumatlarla işləyən yerli mütəxəssislərin potensialının artırılması ilə bağlı müzakirələr aparılıb.

# 11 aprel 2018-ci il - Ötən 4 il sübut etdi ki, xalq öz seçimində yanılmayıb

## İlham Əliyev: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq"



**Dörd il öncə - 11 aprel, 2018-ci il növbədənkənar prezident seçkisində İlham Əliyev dördüncü dəfə xalqın etimadını qazanaraq yüksək səs çoxluğu ilə ölkənin ən ali kürsüsünə yenidən seçildi. Bu tarix həm də Azərbaycan dövlətinin və xalqının növbədənkənar, təxirəsalınmaz və inanılmaz dərəcədə mümkünsüz görünən bir probleminin çözülməsi üçün başlanğıc oldu. Qarabağın azad olunmasının ilk anonsu məhz xalqın, cəmiyyətin 11 aprel 2018-ci ildə Prezidentə yenidən etimadı, inamı oldu. Prezident İlham Əliyev 4 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq".**

Dövlət başçısı hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində hər zaman da bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə, güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Bəli, bu gün artıq o gün gəldi - işğaldan azad olunmuş torpaqlarımızda üç rəngli Azərbaycan bayrağı dalğalanır. Artıq bu gün işğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır, azad olunmuş ərazilərdə böyük inkişafın təməlləri atılır.

### "MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM VƏ GƏLƏCƏYİNƏ BÖYÜK ÜMİDLƏR BƏSLƏYİRƏM",- VƏSİYYƏTİNİ REALLAŞDIRAN XALQIN PREZİDENTİ

Bəli, 4 il öncə - 11 aprel, 2018-ci il prezident seçkilərində xalqa müraciətində deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",- vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",- deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyinə və ərazi bütövlüyümüzə, nəhayət Qələbə Zəfərimizə nail olduq! "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur",- deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident seçilərkən verdiyi bütün sözünə əməli işləri ilə yerinə yetirmişdi və 2018-ci il 11 aprel seçkilərində bir daha xalq dördüncü dəfə İlham Əliyevi o Ali kürsüyə seçməklə 30 il həlli mümkünsüz edilən Qarabağımızı "Dəmir yumruq" siyasəti ilə Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə azad edərək Qələbə Zəfərinə nail olduq. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir",-deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır. Hər zaman çıxışlarında "Mənim sözüm imzam qədər qüvvətlidir",- deyən Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədlər artıq reallığa çevrilib.

Dövlətimizin başçısı İlham Əliyev Dövlət Bayrağı Meydanının açılışında çıxış edərkən demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. Prezident İlham Əliyev 2021-ci ilin yanvarın 14-ü həmin vədini yerinə yetirdi və Şuşa səfəri müzəffər Ali Baş Komandanın sözünün və əməlinin vəhdətinin növbəti nümayişi oldu. Bununla da, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Ali Baş Komandanımız Prezident İlham Əliyev çıxışlarında ərazi bütövlüyümüz bərpa edilən-dən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacağını demişdi. Bu sözlər də artıq reallığa çevrilib və artıq həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Həmçinin, 2018-ci il, 11 apreldə prezident seçilən İlham Əliyevin ilk fərmanı da istisnasız olaraq şəhid ailələrinə 11 min manatlıq birdəfəlik müavinətin verilməsi barədə oldu. Böyük Vətən savaşına hazırlıq məhz şəhid ailələrinə verilən dəyərdən başlamalıydı və bu addım 44 günlük Vətən savaşının ilk günündən səfərbərlik idarələrinin qarşısına axın edən Azərbaycan gənclərinin simasında öz effektini göstərdi. Hər bir sağlam ruhda böyüyən Azərbaycan insanı ölkə prezidentinin səfərbərlik çağırışı ilə könüllü şəkildə şəhidliyi və qaziliyi şərəf mərtəbəsi kimi anlayaraq torpaqlarımızın işğaldan azad olunması mübarizəsinə qoşuldu. Bu mübarizədə Ali Baş komandan kimi İlham Əliyevin həm hərbi, həm diplomatik, həm də təbliğat sahəsində göstərdiyi möhtəşəm performans milli ruhun yenidən dirilişi üçün ən vacib amilə çevrildi.

### 11 APREL SEÇKİLƏRİNDƏN ÖTƏN 4 İL BƏLKƏ DƏ AZƏRBAYCAN TARİXİNİN ƏN GƏRGİN VƏ TALEYÜKLÜ BİR DÖVRÜ KİMİ YADDAŞLARDA YER ALACAQ

Bütün dünyanı ağuşuna alan COVID-19 pandemiyasının dəhşətli nəticələrini çevik zərərsizləşdirərək ölkə vətəndaşlarının can güvənliyini qoruya bilmiş Prezidentin nə qədər böyük sıxıntılara sinə gərdiyinin hamımız şahidi olduq. O, ölkəni bu bəladan ən az itkilərlə çıxarmaq üçün mobil bir səfərbərlik təşkilatçılığı göstərməklə yanaşı, istər Tovuz hadisələrində, istərsə də 44 günlük savaşda vəhşi düşmən qarşısında qələbəmizi təmin edən böyük Sərkərdə iradəsi və Lider qətiyyəti göstərdi. Xalqın doğru seçimi onun tarixi qələbəsinin təminatı oldu. Bu gün Prezident İlham Əliyev haqlı olaraq dünya siyasətində söz sahibi olan bir lider olaraq qəbul olunur və işğaldan azad olunmuş ərazilərimizin bərpası üçün Böyük Qayıdış missiyasına uğurla rəhbərlik edir. Millətini zəfərə daşıyan liderin əsas dayağı qələbə ruhu yenidən canlanan böyük Azərbaycan xalqının birliyidir. Son dörd ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar davamlı xarakter daşıdı. Bu islahatlar ilk növbədə Azərbaycanın qüdrətinin daha da artmasına xidmət etdi.

Prezidentin son dörd ildəki fəaliyyəti, əslində ondan əvvələ qədər nəzərdə tutulan hədəflərə çatmaq üçün qarşıya qoyulan məqsədlər idi. Yəni bu, əvvəlki illərin məntiqi sonluğu, məntiqi davamı idi. Bəzən bunu siyasi rəqiblər qərəzli şəkildə qeyd etmək istəmirlər. Amma siyasi rəqabət reallığı danmaqdan ibarət deyil, yaxşı alternativlər təklif etməkdən ibarətdir. Bu gün dövlət başçısı tərəfindən milli maraqlarımıza cavab verən siyasət yürüdülürsə, bu siyasət istər-istəməz həm bölgənin lider dövləti statusunu qorumağımıza yardımçı olacaq, eyni zamanda da ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artmasını stimullaşdıracaq.

### "MƏN FƏXR EDİRƏM Kİ, XALQ MƏNƏ İNANDI, MƏNİ DƏSTƏKLƏDİ. MƏN DƏ ÖZ NÖVBƏMDƏ ÖZ SÖZLƏRİMƏ ƏMƏL ETDİM"

Prezident İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində bildirib ki, həmişə Azərbaycan xalqının dəstəyini hiss edib və hiss edir: "Bu dəstək mənə güc verir, mən bu dəstəyə arxalanıram. Xalqımızı əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəm". Prezident İlham Əliyev bildirib ki, prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib: "Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verib, inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs verib. Seçkilər ədalətli, şəffaf şəkildə keçirilib... Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqımıza müraciət edərək demişdim ki, əgər xalq mənə etimad göstərərsə, ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalacam, bu siyasəti davam etdirəcəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi. Mən də öz növbəmdə öz sözlərimə əməl etdim".

Bir sözlə, Prezident İlham Əliyevin son dörd illik fəaliyyəti Azərbaycanın gələcək uğurları üçün əlverişli zəmin rolunu oynamaqla, həm də hərtərəfli inkişafını və müasir dünyamızın qlobal çağırışlarından irəli gələn vəzifələrin layiqincə yerinə yetirilməsini təmin edəcək, sabahımız bu günümüzdən daha gözəl və firavan olacaqdır.

***RƏFİQƏ KAMALQIZI***





# Tvinninq layihəsi başa çatıb

**Aprelin 11-də Bakıda "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" Tvinninq layihəsinin bağlanış mərasiminə həsr olunan konfrans keçirilib.**





Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müstəqil dövlətimizin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə



əklil qoyublar. Sonra Şəhidlər xiyabanına gedən tədbir iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər.

Konfransda açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov konfrans iştirakçılarını salamlayıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan sosial-iqtisadi islahatlar nəticəsində müasir Azərbaycan dünyada inamla inkişaf edən, qlobal maliyyə-iqtisadi böhranlardan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərdən biri kimi tanınır. Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2030-cu ilədək dövrü əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir. Hazırkı mərhələdə əsas məqsədlərdən biri uzunmüddətli perspektivə dinamik sosial-iqtisadi inkişafın dayanıqlığının təmin edilməsidir ki, bu işlərin planlaşdırılmasında, nəticələrin qiy-



mətləndirilməsində və təhlil olunmasında rəsmi statistika xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, layihənin məqsədi Azərbaycanda özəl sektorun, o cümlədən kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılması, statistik biznes reyestrlərinin təkmilləşdirilməsi və istifadəçilərin biznes statistikasına olan tələbatı nəzərə alınmaqla biznes statistikasının metodologiyasının Avropa İttifaqının standartlarına uyğunlaşdırılması məqsədilə Dövlət Statistika Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin potensialının artırılmasından ibarət olmuşdur. Tvinninq layihəsinin icrasına 2020-ci ilin iyun ayından başlanılmış və 3 komponentdən ibarət olan layihə 22 ay davam etməklə tam icra edilmişdir.

Dövlət Statistika Komitəsinin Avropa İttifaqı ilə əməkdaşlığı çərçivəsində daha öncə iki Tvinninq layihəsinin və bir texniki yardım layihəsinin həyata keçirildiyini xatırladan T.Budaqov milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indeksi sahələrinin Avropa standartlarına çatdırılmasına həsr olunmuş birinci Tvinninq layihəsi, statistik keyfiyyətin idarə olunması sisteminin və coğrafi informasiya sistemi vasitəsilə statistik məlumatların yayımlanmasının



təkmilləşdirilməsi, əhalinin gəlirləri və həyat şəraiti, əlillik, turizm sahələrində rəsmi statistikanın Avropa standartlarına uyğunlaşdırılması məsələlərini əhatə etmiş ikinci Tvinninq layihəsi haqqında qısa məlumat vermişdir.

Bildirilib ki, COVID-19 pandemiyası ilə əlaqədar olaraq "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" layihəsi çərçivəsində nəzərdə tutulmuş tədbirlərin bir qismi onlayn formatda həyata keçirilmişdir. 2021-ci ilin sentyabr ayının 9-dan etibarən isə layihənin Rezident Tvinninq Müşaviri Dövlət Statistika Komitəsində fəaliyyətinə başlamış, xarici ekspertlərin Azərbaycana səfərləri təşkil olunmuş, ölkə mütəxəssislərinin layihə üzrə tərəfdaş ölkələrə təlim səfərləri baş tutmuşdur. Pandemiya ilə əlaqədar baş verən problemlərin olmasına baxmayaraq layihə çərçivəsində qarşıya qoyulan məqsədlərə nail olunmuşdur.

*Ardı Səh. 5*

# Tvinninq layihəsi başa çatıb

Əvvəli Səh. 4

Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında mövcud olan məlumat mübadiləsinin keyfiyyətinin yaxşılaşdırılması üçün konkret tədbirlər həyata keçirilmiş, biznes statistikasının, o cümlədən kiçik və orta biznes üzrə statistikanın məzmunu və təşkili prosesləri yenilənmiş və Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin işçilərinin biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması ilə bağlı potensialı artırılmışdır.

Konfransda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi cənab Orxan Nəzərli, KOBİA-nın İdarə heyətinin sədri cənab Orxan Məmmədov, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin rəhbəri cənab Viktor Bojkov, Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri xanım Sara Maykl, Finlandiya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Kirsti Narinen, Litva Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Egidijus Navikas, Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Pauline Eizema, Finlandiya Statistika İdarəsinin Baş direktoru cənab Markus Sovala, Litva Statistika Departamentinin Baş direktoru xanım Jurate Petrauskiene çıxış ediblər.

Sonra Finlandiya Statistika İdarəsinin əməkdaşları xanım Hannele Orjala, cənab Ville-Matti Pilvio, Litva Statistika Departamentinin əməkdaşı xanım Raimonda Simiene, Niderland Mərkəzi Statistika Bürosunun əməkdaşı cənab Guus van de Burgt, Dövlət Statistika Komitəsinin əməkdaşları cənab Qasım Əliyev və Nuru Süleymanovun layihə komponentləri üzrə görülmüş işlər haqqında təqdimatları nümayiş olunub.

Konfransda dövlət qurumlarının nümayəndələri ilə yanaşı, Azərbaycanda akkreditə olunmuş bir sıra səfirlik və beynəlxalq təşkilatların rəhbərləri, xarici ölkələrin statistika qurumlarının təmsilçiləri, Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvləri də iştirak etdilər.






# Təkzibolunmaz erməni etirafı...

"...Demək olar ki, bütün beynəlxalq təşkilatlar, eləcə də Ermənistan Mərkəzi Bankı Ermənistan üçün 2022-ci ildə iqtisadi proqnozları kəskin şəkildə pisləşdiriblər. Hazırda ilin sonuna qədər guya bizim təxminən 1,5 faiz səviyyəsində iqtisadi artımımızın olacağı deyilir. Deyim ki, əgər bu real olarsa, bu bizim üşün böyük uğur olar".

Bunu ermənilər deyir, amma nədənsə bunun da tam reallaşa biləcəyinə tərəddüd edirlər. Təbii ki, niyəsini özləri daha yaxşı bilirlər.

...Maraqlıdır ki, ermənilər bu il ölkədə artım baxımından yalnız kənd təsərrüfatı istehsalı ilə bağlı müəyyən "inkişafa" nail ola biləcəklərinə ümid edirlər. Bu ümidi onlarda əvvəlki illərdən fərqli olaraq, bu il Ukrayna və Rusiyanın kənd təsərrüfatı sahələrində mövsümi işləməyə gedən ermənilərin bu il getməyib Ermənistanda qalıb işləyəcəkləri verir.

Amma məsələ bundadır ki, bu il Ermənistanin kənd təsərrüfatı inkişafında qazanacağı hər hansı bir böyük uğura elə böyük tərəddüd edən erməni fermerləri də artıq indidən baş qaldırmağa başlayıblar. Maraqlıdır, görən bunları Ermənistanın kənd təsərrüfatının inkişafı ilə bağlı tərəddüdə sövq edən nədir?



Məsələn, onlar tərəddüdləri üçün əsas gətirib deyirlər ki, 2020-ci ildə bizim bu "zəhmətkeş erməni kənd təsərrüfatı işçiləri" COVID-19 pandemiyası səbəbindən Ukrayna və Rusiyanın kənd təsərrüfatını "şaxələndirmək" üçün gedə bilmədikləri üçün Ermənistanda qalıb işləməli oldular. Amma nəticəsi nə oldu... həmin il Ermənistanda kənd təsərrüfatı istehsalı artmaq əvəzinə, əvvəlki illə müqayisədə 4 faizdən də çox azaldı.

...Deyim ki, əslinə qalanda erməni olanda nə olasıda ki, onların da imanı, dini, özləri demiş, dünyanın ən "yaşlılarındandır". Yəni indi özlərinin deyib-deməməsindən asılı olmayaraq, reallıq göz qabağındadır. Belə ki, hazırda ölkədəki səpinlə bağlı problemlər, deyim ki, torbaynan, yox , yox topba balaca olar...ləyənnəndir.

Öünüz deyin, səpin başlayır, amma... toxumlar, dizel yanacağı, gübrələr və pestisidlərin qiyməti od tutub yanır. Rusların da indi başı öz problemlərinə qarışıb deyə, daha ermənilərə əvvəlki kimi "görüm-baxım" etməyə vaxt tapa bilmir.

Paşinyan da ki, bu sahədə naşıdır deyə, əvvəldən müvafiq ehtiyatlar yaratmaqla məşğul olmayıb. Bir müddət əvvəl erməni fermerlərə, dünyanın ən böyük gübrə istehsalçısı olan Rusiyadan "təbii gübrə" gətirdib paylayacağına söz verən Paşinyan, deyəsən bu dəfə də onların yanında üzüqara olacaq. Çünki bu gün artıq "maddi və mənəvi cəhətdən" tənəzzül keşirən Rusiya ermənilərə daha müftə nəsə vermək niyyətində deyil.

Nə etməli? Qərbin də ermənilərə "gəlgəl" deyib "nəvaziş" göstərməsi, özləri demiş, elə də inandırıcı görünmür. Doğrudur, Paşinyan hökumətinin Ermənistanın "ayrı-ayrı" inkişaf sahələri ilə bağlı verdiyi proqnozlara baxanda adamın "ürəyi dağa" dönür. Hətta az qala bunun real olduğuna belə inanmaq istəyirsən. Amma ölkədəki yaşamla bağlı reallıq başqa şeylər deyir.

Erməni etirafına görə, əslində, bu gün seçim edib xarici ticarəti "şaxələndirilmək", daha nə bilim nələrə baş vurmaq onlar üçün elə də böyük önəm kəsb etmir. İndi, yenə də əksər ermənilər demiş, əsas məsələ yaşamaq məsələsidir. Bu gün dünyadakı yaşantılar qarşıdakı illərin çətin olacağından xəbər verir. Bunun üçün də, ermənilərə görə "... biz hələ Rusiyadan möhkəm yapışmalıyıq. Necə deyərlər bu gün Ermənistanın Rusiyanın təsir orbitini tərk etməsi zərurəti haqqında danışmaq ən azı intihara meyilli görünür".

...Necə deyərlər, bu təkzibolunmaz erməni etirafıdır.

***Ağasəf Babayev***

## Pyer Benolyel:
## "Azərbaycan irqçiliyin, antisemitizmin olmadığı yeganə ölkədir"

Azərbaycanı çox yaxşı tanıyır və sevirəm. Orada sakit həyat var. İnsanlar hər kəsi mehriban qarşılayır, çox qonaqpərvərdirlər. Deyərdim ki, Azərbaycan dünyada irqçiliyin, anti-semitizmin olmadığı yeganə ölkədir. Çox təəssüf ki, ölkə müharibə ilə üzləşməli oldu.



Bu fikirləri fransız seçici, vəkil Pyer Benolyel AZƏRTAC-a müsahibəsində deyib.

"Azərbaycanda hamı məni Pyer kimi tanıyır. Azərbaycan sülh məkanıdır. Ümid edirəm ki, Ermənistanla da hərtərəfli sülh yaratmağa nail olacaq. Azərbaycanla bağlı hadisələri yaxşı bilirəm. Mən hər il Azərbaycana gedirəm. Bu ölkədə özümü daha əmin hiss edirəm. May ayında da Bakıya gedəcəyəm. Ancaq Novruz bayramında Bakıya getməyi daha çox sevirəm. Bakıda, Gəncədə, Qəbələdə olmuşam. Bu şəhərləri çox sevirəm. Bakı son onillikdə nəhəng və gözəl şəhərə çevrilib. Biz Azərbaycanın dostlarıyıq", - deyə P.Benolyel söyləyib.

Fransada keçirilən prezident seçkilərində səs verən Pyer Benolyel bildirib ki, Fransanın indiki prezidenti çox gəncdir. O, tənqidlərlə, çoxlu uğursuzluqlarla üzləşdi. Onun prezidentliyi dövründə çox mürəkkəb hadisələr oldu. Avropada vəziyyət çox mürəkkəbdir. Xüsusilə də, indi Ukrayna münaqişəsi ilə bağlı vəziyyət çox mürəkkəbdir.

# Prezident xalqımız üçün əlindən gələni edir - CƏMİYYƏTİN BAXIŞI

2018-ci il aprelin 11-də keçirilən seçkilərdə seçicilərin 86,02 % səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 2018-cü il aprelin 18-də vəzifəsinin icrasına başlayıb. Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir. Bəs görək şəhər sakinləri Prezidentin fəaliyyəti ilə bağlı nə düşünür. SİA bu mövzu ilə bağlı sorğu keçirib.

**Şəhər sakini Fəridə Əliyeva:** "Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı xoş fikirlərim var. Çünki İlham




Əliyevin səyi, strategiyası nəticəsində 30 illik həsrətimiz sona yetdi. Onun sayəsində ölkəmizlə bağlı mühüm məsələlər öz həllini tapdı. Azərbaycan xalqı olaraq daim İlham Əliyevin yanındayıq".

**Şəhər sakini Əlisəmid Kür:** "Hər şey göz qabağındadır. Aprel döyüşlərinin başlanğıcı olduğu İkinci Qarabağ




Müharibəsi Prezident İlham Əliyevin Azərbaycan üçün nələr etdiyini göstərdi. Ordumuzla birgə İlham Əliyevin xüsusi rolu sayəsində torpaqlarımız azad olundu. Ölkəmiz inkişaf edir, xalqımız üçün sərəncamlar, fərmanlar imzalanır. Azərbaycan xalqı İlham Əliyevin ölkə başçılığından kifayət qədər razıdır".

**Şəhər sakini Roza Eyyubova:** "Təbii ki, sadə xalq olaraq siyasi məsələləri dərindən bilmirik. Amma 44 günlük müharibə zamanı dövlətimizin, Prezidentimizin fəaliyyətinin şahidi ol-




duq. Mən anladım ki, Qarabağ həm xalqımız üçün, həm də İlham Əliyev üçün çox dəyərlidir. İlham Əliyevə Prezident seçildiyi ilk gündən dəstək olmuşuq, bundan sonra da dəstək olmağa davam edəcəyik".

**Şəhər sakini İlham Ağalar:** "Prezidentin son 4 illik fəaliyyəti əsas ola-




raq Qarabağın azad olunması ilə yadda qaldı. Prezidentin fəaliyyəti göz qabağındadır. İlham Əliyevin yalnız daxili deyil, həmçinin xarici siyasətdə də uğurları çoxdur. Ona görə də xalq da onun ətrafında dəmir yumruq kimi birləşib".

**Şəhər sakini Təranə Sultanzadə:** "Ulu Öndər Heydər Əliyev və onun varisi Prezident İlham Əliyev hər zaman ölkəmiz, xalqımız üçün çalışıb. Belə bir lider dövlətimizi günü-gündən irəli aparır. İlham Əliyevi




daim ölkəmizin başında görmək istəyirik. Xalq da İlham Əliyevi sevir və dəstəkləyir".

**Şəhər sakini Qoşqar Mirzəyev:** "Bu son dörd il ərzində Azərbaycanda görünməmiş hadisə baş verdi. İşğal altında olan torpaqlarımız azad olundu.




İlham Əliyev Qarabağın fatehi oldu. Eyni zamanda, xalqın rifahı yaxşılaşdırılıb. Cənab Prezident xalqımız üçün əlindən gələni edir".

***Ləman Əlizadə***

## Ceyhun Bayramov və Ararat Mirzoyan arasında telefon danışığı olub

11 aprel 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan ilə telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyinin mətbuat xidmətfən SİA-ya verilən məlumata görə, tərəflər, iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq, gələcək sülh sazişinin hazırlanması üzrə iş, Birgə Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi aparıblar.




***Banuçiçək Hüseynli***

## "Prezidentin bizi qəbul etməsi qürurverici hissdir"

"Ölkə başçısınının bizi qəbul edib görüşməsi təbii ki, qürurverici bir hissdir". Bu sözləri SİA-ya açıqlamasında 3 qat Avropa çempionu Hacı Əliyev bildirib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin bizim yarışlarımızı izləyib, nəticələrimizə bələd olması bizim üçün böyük bir stimuldur: "Cənab Prezidentin məni Olimpiya çempionu kimi görməsi və haqqımda öz fikirlərini bildirməsi məni çox sevindirdi. Bir idmançı olaraq çox şanslıyıq ki, ölkə başçısı idmana bu qədər xüsusi diqqət və qayğı göstərir. Ali Baş Komandan İlham Əliyevin məni Olimpiya çempionu olaraq görməsinə baxmayaraq mən çalışacam ki, o sözləri həqiqətə çevirib, cənab Prezidentin qarşısına Olimpiya çempionu kimi çıxım. Bu səfərki uğurumuz tarixi bir qələbədir. Komanda olaraq bundan sonrakı yarışlarda qalib olub, bayrağımızı dalğalandırmağa çalışacıyıq".



***Banuçiçək Hüseynli***
***Qönçə Quliyeva***

# Bahar gülümsəyəndə...

*E S S E*

Qışın qısqanclığı bəzən bahara imkan vermir ki, gülümsəsin, Günəşdən gün çələngi alıb səpələsin artıq onun olan meydana. Bu meydanda onu gözləyən insanların üzünə nur çiləsin. Qışın ömrü bitir, amma necə ki, insan dünyadan köçərkən həyatın şirinliyinə əlvida deyə bilmir, onunla vidalaşmaq istəmir, günlərlə mücadilə edir, qış da eynilə getmək, yerini ondan sonra gələn nəslə-bahara vermək istəmir. Beləliklə də həyatımızın növbəti baharı gecikir. Ömrümüzə gələn bahar üçün gözlərimiz yollarda qalır. Elə builki bahar kimi. Əslində günlərdir, yenidən gəlib ömrümüzə, lakin qış yağı düşmən kimi kəsib önünü, qılıncını çəkib, qarşısına çıxanı kəsib-doğrayır. Qış nəyin mücadiləsini aparır, nə üçün baharı belə qısqanır, onun var olmasını istəmir, hələlik bunu anlamırıq. Lakin bahar da bahardır, öz yerini, öz hökmünü kimsəyə verən deyil. Necə ki, düşmən haqsız yerə kiminsə torpağını işğal edir, bu onun sayılmır, nə vaxtsa geri alınır, baharla qışın mücadiəsi də eynilədir. Qış nə qədər güclü olduğunu göstərməyə çalışsa da, bahar onu enir, bir də baxırsan ki, ağaclar ağappaq, çəhrayı çiçəkləyib, əlvan şalını başına atıb, qış da bir tərəfdən öz örpəyini onların üzərinə salsa da, bir az sonra hansı qalır, hansı gedir, bax budur baharın hökmü.

Artıq baharın gəlişi 20 gündən artıq olsa da, hələ də qış öz yolu ilə getmək istəmir. Baharda gözü qalıb sanki, adama elə gəlir ki, qış bahara aşiq olub. Yanından bir addım belə çəkilmək istəmir. Baharda ki, bahardı. Gündən günə gözəlləşir, çiçək açır, ətrafa elə bir naz eləyir ki, nə göz bu gözəllikdən doyur, nə də ruh. Qış necə doysun ki...

Doğrusu baharın builki gözəlliyini hələ də tam dolğunluğu ilə görə bilməmişdim. Biz çalışan insanların həyat tərzi evlə iş arasındakı məsafədən ibarət olduğu üçün bəzən ətrafda baş verənlərdən xəbərsiz qalırıq. Elə bazar günü şəhərdə qarşılaşdığım bahar mənzərələri kimi. Allahdan hava da çox xoş idi. Günəş neçə günlərdən sonra buludların bağrını yarıb üzə çıxa bilmişdi. O da göydə



sanki buludlarla mücadilə edir, birdən görünür, birdən çəkilirdi. Düşünürdüm ki, buludlar onun önünə keçir, bahara boylanmasını əngəlləyirlər. Çünki buludların qışın tərəfində olduğu açıqca görünür. Belə olsa da, hərdənbir doğan Günəşin zərrin işıltısında bahar o qədər gözəl görünürdü ki... Günəş doğduqca ağacların ağappaq çiçəkləri bir az da bəyazlaşırdı, gözqamaşdırıcı olurdu. Çiçəklərin altından çırtıb çıxan yarpaqlar isə bəyazın fonunda elə bir çalar yaratmışdı ki, sanki cənnət də bu gözəllikdən pay almaq üçün ağaclara qonaq gəlmişdi.

Hava baharın gözəl rayihəsi ilə dolmuşdu. Adam istəyirdi ki, həmişəkindən daha artıq nəfəs alsın. Bu ələkeçməz gözəl havanı çiyərlərinə çəkib oraya həkk etsin. Çiçəklərin ətrinin qarışdığı hava ətrafdakı gözəlliyi özündə təzahür etdikcə yerdən göyə qədər hər tərəf gözəlliklərə bürünür, sanki göydəki buludlar da bir andaca çiçəklərə çevrilirdi. Ətrafdakı yaşıl çüçərtilərin rəngi heyrətamiz görünür, baharın füsnunu artırırdı. Quşların nəğməsi isə həzin simfoniya kimi qulaqlara süzülürdü.

Bütün bunlara baxdıqca hər biri ölkəmizin müxtəlif rayonlarından olan şəhər sakinlərinin məxsus olduğu bölgələrə gedib çıxıram. Rayonlarda bahar bir başqadır axı. Mənim kimi sözsüz ki, onların da hər biri öz baharlarını arzulayırlar. Uşaqlıqları, bəlkə də gəncliklərinin yaddaşına yazılan o baharları... Yuxarıda bəhs etdiyim yaşıl cücərtilər rayonlarda tala-tala deyil, göz baxdıqca uzanandır. Torpağın bağrını yarıb yaşılını ellərə, çöllərə, düzlərə sərən çəmən necə də füsunkardır. Lap yaxında çəmənin yaşılı çox açıqdır, göz uzandıqca tündləşir, Günəşin zərrin şüaları altında parıldayır, dağların sinəsinə çatanda isə sanki buludlardan kölgə alıb qaraya çalır rəngi. Bu yaşıl çəməndə Günəşin hərarətini hiss edər-etməz boy verən, azacıq yaz küləklərinə tab gətirə bilməyib yerindəcə bahar nəğməsi ilə rəqs edən incə ağ, sarı, qırmızı, mavi çiçəklər canlanır xəyalımda. Artıq bu yaşılın üzərinə qıpqırmızı lalə örpəyini də sərib, nərgizlər buradan Günəşə boylanıb. Yolçunu yoldan edən, tamaşasına elləri çağıran çiçəklər    Ah, nə gözəl yurdumuz var.

Bu dağlara, dərələrə, düzlərə örtük olan çəmənlərin içərisi tək güllərin-çiçəklərin məskəni deyil, həm də bol-bol nemətlərimizin məskənidir. O nemətlər ki, yazın əvvəllərindən göyün gurlamasını, şimşəyin çaxmasını gözləyir. Bu anda babalarımızın da dediyi kimi, artıq yeməli olan onlarla bitkinin yığım mövsümü başlayır. Ta payızın sonlarında qar yerə düşənədək bir-birinin ardınca insanlarının ruzisinə çevrilirlər.

Saymaqla bitərmi onların adı? Hansını deyim, arxların, kanalların kənarında erkən yazda torpağı çırtıb ətrini ətrafa yayan yarpızımı, bulaqların gözündən axan suyun Günəşin hərarətindən azacıq isinməklə ətraflarda gizlənən bulaqotuna yeni həyat verməsinimi? Toxumunu sanki Tanrının yurdumuza səpdiyi, yığmaqla bitməyən qazayağı, mərövcə, cıbırıq, yemliyimi? Yoxsa yurdumuza baharın gəlişinə baxmayaraq, dağların kölgəliklərində hələ də əriyib, istiyə təslim olmayan qarın altında bahar ömrünü yaşayan cacığı, çirişimi? Hansından danışım? Çobanyastığının çəmənlərin içərisində nazındanmı, dağ nanəsinin, kəklikotunun tək bir yarpağını dərməklə ətrafa yayılan doyumsuz ətrindənmi? İnsan bilmir bu gözəlliklərin hansından danışsın. Bahar bitmir ki... O sanki özündən əvvəl qışdan, özündən sonra isə payızdan bir ay da alıb "Tamaşama gəlin, gözəlliyimə, ruzimə-bərəkətimə baxın", - deyir.

O nemətlər, o ruzilər rayonlarımızdan Bakıya-bazarlara gətirilir. Onları artıq sadəcə burada görən bizlər elə görən kimi də xəyalən rayon, kəndlərimizə gedir, baharın bir gününü orada yaşayır, ətrini ciyərlərimizə çəkir və yenidən bu şəhərə qayıdırıq. Və yaxud da bir andaca həmin ətir ta rayon, kəndlərimizdən burnumuzun önünə qədər gəlir: torpaq ətri, çiçək ətri, əllərimizlə dərdiyimiz, əlimizə ətri hopan min bir adda ruzi payının ətri...

Bir bahar günü  Baharın gülümsəməsində gördüyüm və düşündüyüm bütün mənzərələr sanki "dil açıb danışır", tamaşa etdiyim gözəlliklər fonunda məni Qarabağın baharını da görməyə dəvət edir. Bir anda Qarabağın bütün işğaldan azad olunmuş rayonlarını gəzirəm. Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Füzuliyə və ikinci baharını yaşayan digər rayonlara üz tuturam. Bu ellərə bahar bir başqa gəlmiş ki? Nə gözəldir bu ellərin baharı. İllərdir bahara qoyun açmayan, baharsız qalan ellərin ötən ildən bəri qarşıladığı bahar deyir ki, bu nədir, hələ ömrünüzə neçə-neçə belə baharlar gələcək, sizi xoş günlərə aparacaq. Bu baharsa yenicə qədəmlərini qoyub ana təbiətimizə. Özünə gündə bir sığal verən bu "ellər qızının" qarşıda hələ nə gözəlliklərini görəcəksiniz...

***Mətanət MƏMMƏDOVA***

# İctimai nəqliyyatda gediş haqqı artırılır?

## CƏMİYYƏTİN BAXIŞI

**Bakı şəhərində və paytaxt ətrafında müntəzəm sərnişindaşıma xidməti göstərən özəl daşıyıcı şirkətlər mövcud tariflərə yenidən baxılması və özəl daşıyıcılara dövlət dəstəyinin artırılması ilə bağlı Tarif (qiymət) Şurasının sədri, İqtisadiyyat naziri Mikayıl Cabbarova və Bakı şəhəri İcra Hakimiyyətinin başçısı Eldar Əzizova müraciət ünvanlayıb. Bəs, avtobuslarda gediş haqqı artırılacaqmı?**

SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışıb:



**Şəhər sakini Naibə Süleymanova:** ”Gediş haqqının artırılması heç də düzgün bir fikir deyil. Axı, nəyə görə artırılmalıdır? Heç bir vətəndaş buna razı olmaz. Çünki pandemiya şəraitidir. Biz normal həyata geri dönmək astanasındayıq. Deməli olar ki, əhalinin bir qisminin sosial vəziyyəti yavaş-yavaş düzəlir”.

**Şəhər sakini Əhməd Niyazov:** ”Məncə, bunun bağlı ən düzgün qərarı dövlətin özünün verməsidir. Çünki özəl şirkətlər özlərinə sərf etdiyi kimi hərəkət edirlər, qərar verirlər. Əlbəttə ki, onlara gediş haqqının artırılması sərf edir. Onlar vətəndaşı düşünmür. Bu yanlış bir qərardır. İnanıram ki, bununla bağlı İqtisadiyyat Nazirliyi lazımi qərarı verəcək”.



**Şəhər sakini Gülər Hüseynova:** ”Gündəlik həyatda nəqliyyat vasitəsi olaraq avtobus və metrodan istifadə edirik. Belə bir vəziyyətdə gediş haqqının qaldırılması düzgün bir fikir deyil. Bu təklifi qaldıranları şiddətli şəkildə qınayıram. Onlar heç ictimai nəqliyyatdan istifadə etmirlər”.



**Şəhər sakini Oruc Quliyev:** ”Gediş haqqının qaldırılması düzgün deyil. Belə bir dövrdə qiymət artımı baş verərsə, insanlar bir yerdən digər yerə getmək üçün nədən istifadə edəcək? Kimi fikirləşərək bu cür təkliflər irəli sürüblər? Biz nə etməliyik? Çox adamın maşın almağa imkanı yoxdur. Gediş haqqı da qalxsa, biz yolu piyada getməliyik?”.



**Şəhər sakini Nuranə Niftəliyeva:** ”Belə bir dövrdə gediş haqqının qaldırılması heç də düzgün bir qərar deyil. Şəhərin yarsının maşını var, yarsı isə ictimai nəqliyyatdan istifadə edir. İmkanı olmayan maşın ala bilmir. Bu səbəbdən də ictimai nəqliyyatdan istifadə edir. Belə bir halda vətəndaş nə etməlidir? Düşünürəm ki, İqtisayyat Nazirliyi bununla bağlı düzgün qərarı verəcəkdir”.



**Şəhər sakini Vüqar Yaqubov:** ”Heç düzgün bir təklif deyil. Özəl şirkətlər sadəcə özünə sərf edəni edirlər. Bu çox yanlış bir hərəkətdir. Onlar vətəndaşı düşünmürlər. Fikrimcə, aidiyyatı qurumlar bu məsələ ilə bağlı doğru qərarı verəcəklər”.



**Şəhər sakini İbrahim İmaməliyev:** ”Mən tələbəyəm. Şəhərdə yaşasam da, dostlarımın bir qismi rayondan gəlib burada kirayə qalırlar. Ən azından tələbələr nəzərə alınmalıdır. Çünki avtobuslarda, metrolarda gediş haqqının artırılması ilk növbədə tələbəyə sərf etmir”.

***Arzu Qurbanzadə***

# İrəvan üçün “SOYUQ DUŞ” EFFEKTİ



Brüssel görüşü bir çox məqamlara aydınlıq gətirdi və tərəflər arasında razılaşmalara Ermənistanın törətmək istədiyi maneələr belə aradan qaldırıldı, onların bəhanələrinə belə son qoyuldu. Rəsmi İrəvana məhz Brüssel görüşü ilə müvafiq xatırlatmalar edildi və Ermənistana bir növ həddi bildirildi. Bəlkə də bu zamana qədər hansısa qurumlara, yaxud dövlətlərə ümid edən, bununla da danışıqlardan, razılaşmalardan yayınmağa cəhd edən ermənilər bundan sonra bunun mənasız olduğunu tam şəkildə anladılar. Bununla belə Ermənistan daha bir sıxıntı ilə üzləşdi. Beləki, Brüssel görüşünün ardınca Moskvaya yollanan Ararat Mirzoyan rusiyalı həmkarının kəskin münasibəti və ölkəsinə olan ismarıcları ilə qarşılaşmalı oldu.

Bilirik ki, Ermənistanın hər zaman ümid etdiyi Minsk Qrupu və onun formatının bundan sonra işə yaramayacağı Brüsseldə öz təsdiqini tapdı. Ukrayna ilə toqquşması fonunda Qərbin, məhz Rusiyanın da iştirak etdiyi quruma da, onun formatına da xeyirdua verməməsi ermənilərin nəinki əl-qolunu yığışdırdı, hətta xülyalara belə düşmələrinə yol qoymadı. Belə bir halın ardınca ermənilər daha bir dilemma ilə qarşılaşmalı oldular, özü də arxa hesab etdikləri böyük qardaşlarından. Sergey Lavrov Moskvaya yollanan Mirzoyan vasitəsilə açıq-aşkar Paşinyana mesaj göndərdi və bildirildi ki, Rusiya Brüsseldəki görüşlərə, danışıqlara əhəmiyyət belə vermir, çünki ermənilər ruslarsız heç bir qərar verə bilməzlər. Görünür, ermənilərin Qərbin iştirakı və təşkilatçılığı ilə danışıqlara getməsi rusları özündən çıxarıb və Lavrovun mesajı da öz növbəsində Ermənistana həddini bildirmək kimi başa düşülür. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Rusiyaya səfəri, burada rusiyalı həmkarı Sergey Lavrov və KTMT-nin baş katibi Stanislav Zas ilə görüşlər keçirməsini İrəvan üçün əminliklə ”soyuq duş” adlandırmaq olar. Ermənilər tam aydın şəkildə anladılar və əmindirlər ki, artıq Rusiyaya arxalana bilməzlər və bundan sonra ağıllarına gələni etmək mümkün olmayacaq.

Lavrovun aqressiv hücumlarına Mirzoyanın pərişan halda necə ləng, özü də rus dilində necə qırıq-qırıq müqavimət göstərdiyini görmək ermənilər üçün arzuolunmaz idi və bunu həmçinin bütün dünya da gördü. Eyni zamanda, Ermənistan və Rusiya XİN rəhbərlərinin görüşünün yekunu üzrə keçirilən mətbuat konfransında da ermənilər üçün kifayət qədər böyük zərbə hesab olunacaq səhnələr var idi. Özünü guya suveren bir dövlətin Xarici İşlər Naziliyinin rəhbəri kimi aparmaq istəyən Mirzoyana rusiyalı həmkarı tamamilə etinasız münasibət göstərir, istədiyi zaman da onun sözünü kəsirdi ki, bütün bunlar təkcə Ararat Mirzoyan deyil, ümumilikdə Ermənistan üçün həqiqətən də xoşagələn deyildi, amma bir sıra məqamlara aydınlıq gətirirdi. Lavrovun davranışlarından belə aydın olurdu ki, ruslar ermənilərin Brüsseldəki qərarlarını hesaba almırlar və bir növ Rusiya Ermənistana çatdırırdı ki, Qərbin sözü ilə onları danışıqlar prosesindən kənarlaşdırmağa cəhd belə edə bilməzlər. Bir sözlə indi ermənilər, Qərb və Rusiya olmaqla iki od arasında qalıblar və heç birinin də tələbləri, şərtləri onları qane etmir, əksinə, onları təsəvvür belə etmədikləri çərçivəyə salır. Hər iki tələblərdə, şərtlərdə Ermənistana bildirilir ki, onlar Ermənistan-Azərbaycan sərhədinin delimitasiyasına, sülh sazişinə getməlidirlər və başqa yol yoxdur. Lavrov da Mirzoyanla danışıqlar zamanı bunları tələb edirdi erməni həmkarından və hətta Ermənistana məxsus mətbuat səhifələri yazır ki, sanki Mirzoyanın yanında Lavrovun əvəzinə Ceyhun Bayramov dayanıb və Rusiya diplomatiyasının rəhbərinin səsləndirdiyi tezislər Azərbaycanın mövqeyi ilə tam üst-üstə düşür. Elə ermənilərin kürkünə birə salan da budur və məhz ermənilər üçün ”soyuq duş” effekti dediyimiz də buna görədir.

Ermənilərin canına vəlvələ salan daha bir məqam da diqqətdən yayınan deyil. Beləki, işğalçı ölkənin mətbuat orqanları yazır ki, Lavrov Brüssellə əlaqədar və Ermənistanın Rusiyasız qərar verə bilməyəcəyi ilə bağlı Paşinyana göndərdiyi ismarıcla kifayətlənməyib və Azərbaycan-Rusiya gündəmini, eləcə də münasibətlərini yüksək qiymətləndirdiyini açıq-aşkar biruzə verib. Fərrux kəndi ilə bağlı Azərbaycan tərəfinin əməliyyatları barədə münasibət bildirən, Rusiya sülhməramlılarının bu məqamda fəaliyyətsizliyindən gileyləndiyini ifadə edən Paşinyan bu mənada da Lavrov tərəfindən hədəfə alınıb ki, bunu da ermənilər rusların sərt təpkisi hesab edirlər. Xatırladaq ki, Paşinyan hətta sözügedən məsələ ilə əlaqədar hərtərəfli araşdırılma tələb etmişdi və görünür Lavrov indi ona öz yerini göstərir. Göstərir ki, onlara nə deyiləcəksə onu da etməlidirlər və özləri hansısa qərar sahibi deyillər, nəinki ittiham.

Ermənistan tərəfinin ATƏT-in Minsk qrupu məsələsi ilə bağlı mövqeyinə də Lavrov münasibət bildirib və bu da ermənilər üçün qənaətbəxş hesab edilə bilməz. Çünki, bu məsələdə az qala nazirlər arasında deyişmə baş verib və bu mübarizədə də Lavrov tərəf müqabilini, Mirzoyanı susdurub. Daha dəqiq desək susmağa məcbur edib. Fransa və ABŞ-ın ATƏT-in Minsk qrupu çərçivəsində Qarabağla bağlı Moskva ilə əməkdaşlıqdan imtina etməsi səbəbindən bu strukturun faktiki olaraq fəaliyyətini dayandırdığını deyən və həmkarına etiraz etməyə çalışan Ararat Mirzoyanı dərhal Segey Lavrov susdurub. ”Həmsədrlər üçlüyünün mövcudluğunu dayandırması faktını fransızlar və amerikalılar özləri bəyan ediblər, mənim üçün bu faktdır, onların bəyanatında hansı sözlər işlətdiklərini bilmirəm, amma bölgənin taleyini rusofob vəzifələrinə qurban vermələri, ən azı üçlüyün regionun taleyində oynaya biləcəyi rol faktdır və onlar öz prioritetlərini kifayət qədər aydın şəkildə müəyyən ediblər”, deyən Lavrovun sözlərindən bütövlükdə erməni cəmiyyəti ürküb, qorxuya düşüb və indi onlar hesab edirlər ki, Moskva ilə Bakının maraqları tamamilə üst-üstə düşür, hansıki bu onlar üçün daha dəhşətli hesab olunur. Bu baxımdan Moskvaya yollanan və həmkarı ilə görüşən Ararat Mirzoyana deyilənlər, Sergey Lavrovun ifadə etdiyi fikirlər rəsmi İrəvan üçün əsl ”soyuq duş” effekti oldu və başda elə erməni baş nazir olmaqla bütün ermənilər anladılar ki, onların çirkli olyunlarının sonu soxdan çatıb və bundan sonra müttəfiqləri belə buna dözmək, tab etmək fikrində deyil, nəinki arxalarında durmaq. İşğalçılığı dövlət siyasəti hesab edən, bu siyasətin yeridilməsində tarix boyu rusları, eləcə də Qərb ölkələrini arxa-dayaq görən ermənilər indi arxasız qaldıqlarının fərqindədirlər və çaş-baş qalmaları da anlaşılandır. Hər bir halda bu işğalçı ölkənin çıxış yolu sülh prosesindən keçir ki, bu da həm Qərb, həm də Rusiya tərəfindən onlara xatırladılır. Bir sözlə, bölgədə Azərbaycanın yaratdığı reallığı Qərbin də, Rusiyanın da qəbul etdiyi göz önündədir və bunu ermənilərin də tez bir zamanda qəbul etmələri özləri üçün faydalı ola bilər, əks halda bütün dünya ilə qarşılaşacaqları, arxasız qalacaqları təkzib edilə bilməz.

***İnam Hacıyev***

# MÜZƏFFƏR

## xalqın möhtəşəm idman qələbələri



**Azərbaycan qazandığı idman ölkəsi statusunu qoruyub saxlayır. Müxtəlif idman növlərini əhatə edən önəmli beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə ev sahibliyi etməsi, eləcə də beynəlxalq yarışlarda idmançılarımızın iştirakı, əldə etdiyi uğurlar bunu deməyə əsas verir. Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının bariz nümunəsidir.**

İnsanların fiziki və mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayan bədən tərbiyəsi və idman dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Bu qayğı idmanın inkişafına böyük təkan verməklə yanaşı, minlərlə yeniyetmə və gəncin sağlam ruhda tərbiyə olunmasına şərait yaradır. Fərəhli haldır ki, respublikamızda idman bölmələrinə axın kütləvi xarakter alıb. Respublikamızın əksər regionlarında müasir standartlara cavab verən, hər cür şəraiti olan Olimpiya idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların istifadəsinə verilib. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması ilə bu kütləvilik daha da geniş vüsət alıb. Heç şübhəsiz ki, uğurların təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursla bağlıdır. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan inkişaf dövrünə qədəm qoyub. Ümummilli Lider ölkəmizdə sağlam gənc nəslin yetişməsində və uğurlarımızın təbliğində idmanın rolunu həmişə yüksək qiymətləndirib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Azərbaycanda idmana olan münasibət başqa ölkələrə nümunə kimi göstərilir. Ölkəmizin nüfuzlu idman yarışlarına və tədbirlərinə ev sahibliyi etməsi, təmsilçilərimizin mötəbər yarışlarda medallar qazanması respublikamızı dünyada inkişaf etmiş idman ölkəsi kimi tanınıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və

## Prezident İlham Əliyev:

**"Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır"**





Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb.

### ”HƏM GƏNCLƏR, HƏM BÖYÜKLƏR ARASINDA AVROPADA BİRİNCİ YERİ TUTMAQ BÖYÜK NAİLİYYƏTİMİZDİR”

İdmana ayrılan diqqətin nəticəsini QALİB, MÜZƏFFƏR xalqın idmançılarının beynəlxalq miqyasda keçirilən yarışlarda qazandığı nailiyyətlərdə bir daha görmüş oluruq. Bildiyimiz kimi, bu yaxınlarda Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək daha bir böyük uğura imza atdılar. Bolqarıstanda keçirilən 23 yaşadək güləşçilərin Avropa çempionatının ardınca Macarıstanda keçirilən böyüklərin Avropa çempionatında da yüksək nəticələr qazandılar. Komandalarımız ümumilikdə 3 qızıl, 6 gümüş və 7 bürünc medal əldə etdi. Həm sərbəst, həm də yunan-Roma güləşi üzrə milli komandalarımız komanda hesabında Avropa çempionu oldu. İki komandamızın eyni vaxtda Avropa çempionu olması güləş tariximizdə yeni rekorddur. Həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə Azərbaycan komandaları Avropada birinci oldular. Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edərkən çıxışı zamanı bildirib ki, Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər: ”Əlbəttə ki, bir daha Azərbaycan güləşçiləri miz bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır”. Dövlət başçısı onu da qeyd edib ki, həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir: ”Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır”.

### ”CƏMİ 44 GÜN ƏRZİNDƏ BÖYÜK TARİXİ QƏLƏBƏ QAZANMIŞ XALQI TƏMSİL ETMƏK HƏM BÖYÜK QÜRURDUR, HƏM DƏ BÖYÜK MƏSULİYYƏTDİR”

Bu gün idmançılarımız Müzəffər Azərbaycan xalqını təmsil edirlər. Onlar Qalib ölkənin idmançıları olaraq Azərbaycan dövlət bayrağını qaldırırlar.

”Cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir”, - deyən Azərbaycan Prezidenti bildirib ki, idmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı. Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır”.

## HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI ÖZ ƏMƏYİ İLƏ ÖLKƏMİZİ GÜCLƏNDİRİR

Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan

tövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. ”Gənclər Vətəni

edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır”.

## ”YAY OLİMPİYA OYUNLARINDA DA BİZ BİR DAHA ÖLKƏMİZİN GÜCÜNÜ, İDMAN GÜCÜNÜ GÖSTƏRƏCƏYİK”

Cənab Prezident Budapeştdə keçirilmiş çempionatın gedişatında Azərbaycan idmançılarının özlərini necə ləyaqətli aparmasına da diqqət yetirib: ”Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ







böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Ölkəmizdə dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bü-

ləyaqətlə təmsil edirlər”, - deyə bildirən Cənab Prezident diqqətə çatdırıb ki, hərə öz yerində, idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir: ”Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən

Azərbaycan idmançılarını yeni yarışlar gözləyir. ”Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə iki ildən sonra Yay Olimpiya Oyunları keçiriləcək” - deyə Cənab Prezident çıxışında bildirib: ”Yay Olimpiya Oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik. Çünki Olimpiya Oyunları, Yay Olimpiya Oyunları bütün idman yarışları arasında, əlbəttə ki, xüsusi yer tutur, fərqlənir. Hesab edirəm ki, bütövlükdə növbəti Olimpiya Oyunlarında Azərbaycan çox uğurla çıxış edə bilər Artıq biz bu qələbələrə öyrəşirik və necə deyərlər, bu yüksək nəticələri saxlamaq çətin olacaq, idmanda hər şey ola bilər - məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda nəticələrə baxmayaraq əsas odur ki, idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil edirlər”.

## ”BİZ DÜŞMƏNİ VƏ YA İDMAN RƏQİBİNİ MƏHZ QAYDALAR ÇƏRÇİVƏSİNDƏ, LƏYAQƏT PRİNSİPİ ƏSASINDA MƏĞLUB ETMƏLİYİK”

müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə”. 44 günlük Vətən müharibəsində terror əməliyyatları həyata keçirən ermənilər şəhərlərimizi ballistik raketlərlə atəşə tutdular. Dinc insanlar - uşaq, qadın, yaşlı insan həlak oldu. Azərbaycan döyüşçüsü isə erməniyə döyüş meydanında cavabını verdi. ”Mən keçirilmiş Avropa çempionatında da eyni xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti” - deyən Prezident qeyd edib ki, ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir: ”Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, bundan sonra da istənilən idman növündə Qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq. Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Avropa iki seçim qarşısında: Makron, yoxsa Le Pen?

## Fransa seçkiləri və nəticələri nəyi vəd edir və nəyi etmir?

**Məlum olduğu kimi, Fransada növbəti prezident seçkiləri keçirildi və seçkilərin ilk turunda hazırkı prezident Emmanuel Makrona əsas rəqib olan sağçı ”Milli Birlik” partiyasının lideri Marin Le Pen bir neçə səs fərqi ilə ona məğlub oldu. Digər namizədlərin isə elə ilk turdaca məğlub olmaları növbəti turun məhz iki namizəd - Makron-Li Pen arasında baş tutacağını, habelə kəskin mübarizənin aparılacağı təsəvvürünü yaratmaqdadır.**

Lakin nəzərə alsaq ki, Fransanın ümumi dövlət siyasətində illərdir ki, Türkiyə ilə münasibətləri əsasən soyuqluqla müşahidə olunub və o cümlədən, Fransa daha çox açıq ermənipərəstlik mövqeyini nümayiş etdirir, bu zaman hansı namizədin qalib olacağından asılı olmayaraq, sonrakı proseslərin hansı istiqamətdə cərəyan edəcəyi də bəzi sualları doğurur. Daha dəqiq desək, bu da bir faktdır ki, istər beynəlxalq siyasi müstəvidə, istərsə də regional siyasətdə ən çox diqqət çəkən məsələ Türkiyənin Fransa ilə əlaqələri öndə dayanıb. Türkiyənin Azərbaycanla heç bir ölkələr arasında müşahidə edilməyən və analoqu olmayan strateji və müttəfiqlik münasibətlərini də buraya əlavə etsək, onda Fransa seçkilərinin nəticələri bizim üçün ikiqat maraq yaradır.

### Bəs indiki vaxtda Makronun Ərdoğanla münasibətlərinin istiləşməsi arxasında hansı amillər dayanır?

Onu da xatırlatmaq olar ki, məhz Makronun prezidentliyi dövründə Fransa Türkiyə ilə sərt rəqabətə, hətta diplomatik konfrontasiyaya getdi. Buna səbəb Liviya, Qarabağ və Aralıq dənizi kimi məsələlər idi. Məhz bu siyasi-diplomatik rəqabətlər nəticəsində fransız-türk münasibətləri daha da pisləşdi. Və ən maraqlısı isə budur ki, məhz Makronun prezidentliyinin sonlarına yaxın, yəni seçkilərə az qalmış ölkələr arasında müəyyən istiləşmələrə başlanıldı. Bu isə Ukrayna olayları ilə bağlıdır. Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması Ankaranın vasitəçi qismində öz fəaliyyətini təklif etməsi Parisi də bu addımı atmağa vadar etdi və nəticədə Rəcəb Tayyib Ərdoğan və Emmanuel Makron Ukraynanın Mariupol şəhərində humanitar böhranla bağlı çətin vəziyyətdə qalmış dinc əhalinin təhlükəsiz yerlərə çıxarılmaları, təxliyyə edilmələri üçün Rusiyanın prezidenti Vladimir Putinlə müəyyən razılaşmalar əldə etdilər. Ancaq bu razılaşmanın da əldə edilməsində Makronun deyil, məhz Ərdoğanın nüfuzu rol oynadı. Buna qədər isə yenə də Türkiyənin vasitəçiliyi ilə Antalyada və İstanbulda ukraynalılarla rusların yüksək səviyyəli diplomatik danışıqları təşkil edildi. Bu baxımdan, Makron prezident seçkiləri ərəfəsində Ərdoğanın onu da prosesə cəlb etməsinə, hətta təbliğ olunmasına şərait yaratmasına görə türk həmkarına minnətdar olmalıdır.

Məhz bundan sonra Makron ona edilən jestə-jest edərək Türkiyə, Fransa və İtaliya arasında üçtərəfli formatda danışıqların bərpa edilməsini təklifi ilə çıxış etdi. Danışıqlarda SAMT-T Havadan Müdafiə sisteminin müştərək istehsalı barədə ümumi razılığın əldə edilməsi planlaşdırılır.

### Fransa şirkətlərinin Qarabağa yolları hansı halda açıla bilər?

Bu baxımdan, əgər Makron öz prezidentlik kürsüsünü mühafizə edə bilsə onun yeni prezidentliyi dövründə Fransa-Türkiyə münasibətlərində yeni səhifə açıla, o cümlədən, Parisin açıq ermənipərəstlik çıxışları da həlimləyə, hətta dondurula bilər. Təbii ki, belə olan halda müsbət məcranın Cənubi Qafqazın lider ölkəsi kimi qiymətləndirilən Azərbaycanın da səmərə alacağını demək mümkündür. Məsələn, Qarabağda bir çox əcnəbi nəhəng şirkətlər fəaliyyət göstərirlər və Fransa şirkətlərinin də həmin sıraya daxil olması mümkünlüyünə baxmaq imkanı yaranar.

Ancaq biz bu məsələdə sağçı Le Penin də zəif olmadığını qeyd edə bilərik. Belə ki, Le Pen antitürk və antiislam ritorikaları ilə yadda qalıb və belə olan vəziyyətdə qadın namizədin prezident seçiləcəyi halda fransız-türk münasibətləri paradiqma dəyişikliyinə məruz qala bilər.

### Əbəs deyil ki, artıq Avropa məkanında da bu qadının seçkilərdə məğlub olması arzulanır və Makronun qalib gələcəyinə ümidlər bəslənir




Gəlin məsələyə daha geniş prizmadan yanaşaq. Le Pen Türkiyəyə münasibətdə yalnız ultrasağçı və siyasi identikliyi ilə deyil, həm də mədəniyyət müxtəlifliyi yönündəki iddiaları ilə seçilir. O, dəfələrlə çıxışlarında bildirib ki, Türkiyənin Avropa İttifaqına üzvlüyünə qarşıdır, hətta Ankaranın NATO üzvü olmasına da mənfi baxır.

Bundan əlavə, Le Pen dəfələrlə Fransada iri diaspora malik olan türk icmalarına qarşı aqressiv çağırışları ilə yadda qalıb, üstəlik dəfələrlə Avropa İttifaqından Ərdoğana qarşı sanksiyaların tətbiq olunmasını tələb edir.

Beləliklə, Le Penin deyil, məhz Makronun seçkilərin ikinci turunda qalib gəlməsi həm Türkiyə üçün, həm də region üçün maraqlıdır. Yəni Le Penin qalib gələcəyi halda Fransanın siyasəti yalnız Türkiyəyə qaşrı deyil, bütövlükdə Avropa İttifaqı regionuna da öz mənfi təsirlərini göstərə bilər. Məhz həmin halda Qərbi Avropada fəaliyyət göstərən ultrasağçı, islamafob və türkofob siyasi dairələr baş qaldırmaq istəyəcəklər. Le Pen isə onlar üçün yaşıl işığın yandırılması üçün əlində olan bütün imtiyazlardan istifadə edə bilər. Əbəs deyil ki, artıq Avropa məkanında da bu qadının seçkilərdə məğlub olması arzulanır və Makronun qalib gələcəyinə ümidlər bəslənir.

***Rövşən RƏSULOV***



# Sabitlik adası Azərbaycanda insan azadlıqları

*Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi demokratik prinsiplərə əsaslanır*

Mövcud faktlara və reallıqlara əsaslanaraq demək olar ki, Azərbaycanda qəbul edilən qanunlar, imzalanan Prezident fərman və sərəncamları insanların daha yaxşı, firavan və təhlükəsiz yaşamasına hesablanır. Məhz bu baxımdan da, bu gün Azərbaycan dünyada ən inkişaf etmiş, demokratik dövlətlərdən biri kimi tanınır və qəbul edilir. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan parlamenti tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi insan hüquq və azadlıqlarının təmin olunması ən ümdə məsələlərdən olmuşdur. Aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində demokratiya cəmiyyət quruculuğuna nail olunmaqla insan hüquqlarının ən yüksək səviyyədə təmin olunmuşdur.

Razılaşmaq lazımdır ki, ölkəmiz əldə etdiyi bugünkü uğurları ağır proseslərdən keçməklə əldə edib. Müstəqilliyimizin ilk illərində Azərbaycan dövləti və xalqı ciddi problemlərlə üzləşməli oldu. Mütəllibov hakimiyyətinin, daha sonra AXC-Müsavat iqtidarının səriştəsiz siyasəti nəticəsində dövlətçiliyimiz məhv olmaq, xalqın sabaha olan inamı alt-üst olmuşdu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonra ölkədə siyasi sabitlik təmin olundu, zorakı dövlət çevrilişlərinin qarşısı alındı, qanunçuluq və hüquq qaydaları möhkəmləndirildi, vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və azadlıqlarının qorunması dövlətin başlıca vəzifəsinə çevrilməyə başladı. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

### Azərbaycanda hüquqi islahatlar keyfiyyətcə yeni mərhələ təşkil edir

Konstitusiyada əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquqi islahatları və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir. Konstitusiyanın qəbulundan sonra Azərbaycanda hüquqi islahatların keyfiyyətcə yeni mərhələsi başlanmış, yeni qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir. Konstitusiyanın III fəsli, bütövlükdə, yəni 48 maddə insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Əsas Qanunun 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir, bu hüquqları və azadlıqları qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifə kimi qoyulur. İnsan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşması vasitəsilə xalqın hakimiyyət funksiyasının həyata keçirilməsində iştirakı, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və bu kimi digər məsələlər Əsas Qanunumuzun mahiyyətini təşkil edir. Milli və ümumbəşəriliyin vəhdətini özündə əks etdirən Azərbaycan Konstitusiyası dünyanın bütün demokratik ölkələrinin təcrübəsinə əsaslanmaqla yanaşı, həm də milli xüsusiyyətləri də nəzərə almışdır. Konstitusiyamızın üçdə birini təşkil edən "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" fəslində əksini tapdı. Sonradan bu sahədə ardıcıl iş davam etdirilərək, Konstitusiyanın özü daha da təkmilləşdirildi. Ulu Öndər Heydər Əliyev hələ Konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

### Dövlət siyasətinin təməlində Azərbaycan vətəndaşı dayanır

Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiq olunub. Dövlət proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdir. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır. Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət siyasətinin təməlində vətəndaş mövqeyinin əhəmiyyətini vurğulamaqla, cəmiyyətdə hər bir vətəndaşın, hər bir insanın qənaətə gəldiyi rəyə dövlətin münasibətinin hiss edilməsini bildirmişdir: "Azərbaycan dövləti sosial dövlətdir, çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat rifah içində yaşaması bizim başlıca borcumuzdur".

### Demokratik islahatlar ardıcıl xarakter daşıyır

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi möhtəşəm islahatlar nəticəsində demokratik vətəndaş cəmiyyəti, hüquqi və dünyəvi dövlət quruculuğu konstitusiyası, bazar münasibətlərinə əsaslanan güclü iqtisadiyyat, balanslaşdırılmış xarici siyasət və digər sahələrdə mütərəqqi uğurlar əldə olunmuşdur. Milli Məclisin komitə sədri Əli Hüseynli, haqlı olaraq qeyd edir ki, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət idarəetməsinin cəmiyyət üzvlərinin maraqları çərçivəsində həyata keçirilməsinin təmin olunması istiqamətində prinsipial addımların atılması xüsusi nəzarətdə saxlayır. Azərbaycanda həyata keçirilən inzibati islahatların başlıca hədəfi idarəetmənin cəmiyyətin gözləntilərinə cavab verməsini təmin etməkdən ibarətdir". Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Aydın siyasi iradənin, çağdaş hüquqi dövlət quruculuğu işində qısa müddətdə mühüm uğurlar əldə edilməsinin, cəmiyyət həyatının bütün sferalarını əhatə edən demokratik islahatların qətiyyətlə və ardıcıl həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan BMT-nin yeni yaradılmış İnsan Hüquqları Şurasına üzv seçilmişdir. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın bu quruma üzv seçilməsi ölkəmizin əldə etdiyi ən mühüm nailiyyətlərindən biridir. Azərbaycan-BMT əlaqələrinin inkişafı, möhkəmlənməsi və ölkəmizin bu təşkilatda böyük nüfuz qazanmasını göstərən ən əhəmiyyətli hadisə isə 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu quruma rəhbərlik etməsi olmuşdur. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul olundu. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir. Azərbaycan Prezidenti İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. İnsan hüquqları aylığı çərçivəsində "Milli Fəaliyyət Proqramı"nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

**İ.ƏLİYEV**

# QARABAĞ
## atları tarixin yaddaşında

*Dünyaya səs salan Qarabağ - Cıdır düzü at yarışlarının keçiriləcəyi ən möhtəşəm yarış meydanına çevriləcək*

**Qəhrəmanlıq rəmzi olan Qarabağın cins atları şahanəliyi, görkəmi ilə də diqqət çəkir. Qarabağımızın tarixi, mədəniyyəti, incəsənəti, füsunkar təbiəti ilə bağlı yazılarımızı yazarkən, qeyri-ixtiyari olaraq bu əzəli torağımızın dünyaya səs salan məşhur atları da göz önümüzdə canlanır. Məğrurluq, qəhrəmanlıq, dözümlülük və əzəmət rəmzinə çevrilən Qarabağ atlarının da ruhu bu torpağın qəhrəmanlığından köklənib. Geri yox, yalnız və yalnız qalib olana qədər, birincilik qazanana qədər yorulmadan, toz-duman içində çapmaq. Dünyada tanınan 260 at növündən fərqlənən Qarabağ atları qaçış sürəti ilə seçilir və rekord sürət Ağdam Atçılıq Zavodunda yetişdirilən Sumqanda adlı at tərəfindən 1600 metr məsafəni 1 dəqiqə 54 saniyəyə qaçmaqla qeydə alınıb.**

Azərbaycan atçılığın qədimdən inkişaf etdiyi ölkələrdən biridir. Qarabağ atının əsas yayıldığı məkan tarix boyu Azərbaycanın Qarabağ zonası olub. Ən yaxşı atlar Şuşa, Ağdam və bu rayonlara yaxın ərazilərdə yayılıb. Bu cinsdən olan atlar Şimali Qafqaza, Dona və Rusiyanın cənubunda yerləşən bir çox at zavodlarına da aparılıb. "Ərəb", "Don", "Budyonnı" kimi məşhur at cinsləri arasında Qarabağ atları xüsusi yer tutur. Qarabağ atları Asiya və Qafqazda ən qədim at cinsi hesab edilir. Aparılan araşdırmaların nəticəsi olaraq Qarabağ atlarının Manna, Midiya, Atropatena və Albaniya atlarının nəsillərindən olduğu bildirilir. Qarabağ atları əsrlər boyu Roma, Sasani, Ərəb, Səlcuq, Monqol, İran və s. atlar ilə qarşılıqlı təsir nəticəsində müəyyən dəyişikliyə uğrasa da, öz əsli-kökünü saxlaya bilmişdir.

### QARABAĞ ATLARI ƏRƏB VƏ İNGİLİS CİNC ATLARININ FORMALAŞMASINDA ROL OYNAYIBLAR

Tarixi dövrümüzə nəzər salsaq görərik ki, hələ XVII-XVIII əsrlərdə Qarabağ xanlığında bu at cinsi daha da təkmilləşdirilmişdir. Pənah xan, Mehdiqulu xan və Cəfərqulu xanın Qarabağ bölgəsindəki atçılıq zavodları "Dilbaz" cins atının formalaşmasında və təkmilləşməsində önəmli rol oynayıb. Bir sıra faktlar sübut edir ki, Azərbaycan atları dünyada geniş yayılmış ərəb və ingilis cinc atlarının formalaşmasında müəyyən rol oynayıblar. Qarabağ atlarının cins kimi təkmilləşdirilməsində və böyük şöhrət qazanaraq geniş yayılmasında Qarabağın Xan zavodlarının əvəzsiz rolu qeyd edilməlidir. Şuşa qəzasında yüzdən çox atçılıq zavodları Pənah xanın, onun oğlu, Qarabağın sonuncu müstəqil hakimi olmuş İbrahim xanın, İbrahim xanın oğlanları Mehdiqulu xanın, Məhəmməd Həsən ağanın, onun oğlu Cəfərqulu-Cavanşir xanın, Xan qızı Natəvanın və digər xan zümrəsinə daxil olan sülalərin nümayəndələrinə məxsus olub. Pənah xanın, onun sülaləsinin davamçıları olan Mehdiqulu xanın və Cəfərqulu xanın zavodlarında yetişdirilən Qarabağ atları xüsusilə fərqləndiyi və əvəzsiz maddi-mənəvi miras kimi sonrakı nəsillərə ötürülməsində böyük rol oynayıb. Orta əsrlərdən ta XIX əsrin sonlarına qədər uzun bir dövr ərzində Qarabağ atları bir sıra proseslərin fonunda onlar üçün qızıl əsr hesab edilə bilən inkişaf yolunu keçmişdir.

### 1832-Cİ İLDƏ QARABAĞDA 11 ATÇILIQ ZAVODU VAR İDİ

Bildiyimiz kimi, at bütün dövrlər üçün sərfəli nəqliyyat növü olmuşdur. Fasiləsiz feodal müharibələri və basqınları zamanı at minik vasitəsi kimi döyüşlərdə əvəzedilməz rol oynayıb. 1832-ci ildə Qarabağda 250 ayğırı və 1400 madyanı olan 11 atçılıq zavodu var idi. Satış üçün atların yetişdirilməsi ilə iri feodallar məşğul olurdular. Onlar çoxlu sayda madyan yetişdirir və onlardan alınan balaları satışa verirdilər. 1831-ci ildə Qarabağda bir atın qiyməti 30 çervondan 300 çervona qədər idi ki, bu da öz dövrü üçün kifayət qədər böyük məbləğ idi.

Tarixi mənbələrdə qeyd olunur ki, XIX əsrdə Azərbaycanda at cinsləri içərisində ən çox şöhrət qazananlardan biri Qarabağ atı idi. Bu at öz yüksək keyfiyyət göstəricilərinə görə təmiz qanlı ərəb atı olan köhlənlə bərabər tutulurdu. Tarixi-etnoqrafik ədəbiyyatda Qarabağ cinsinin bir çox tipləri qeydə alınmışdır. Bunlardan Maymun (Xoşbəxt), Toxmaq, Şahmar, Qarnı yırtıq, Əlyetməz, Ceyran, Səlminaz və s. göstərmək olar. Bütün bunlar yerli şəraitə tam uyğunlaşan, yəhər altında özünü çox sərbəst hiss edən münasib minik atları idi. Qarabağ atının yorulmaq bilməyən sürətli yerişi və digər müsbət keyfiyyətlərinə görə nəinki Rusiyada, habelə Polşa, İngiltərə, Fransa kimi Avropa ölkələrində də həvəskar müştəriləri vardı. Qarabağ cinsinin şöhrəti müqabilində, həmin cinsdən olan ayqırlar döl məqsədi ilə atçılıq zavodları üçün satın alınır və bu yolla yerli at cinsləri yaxşılaşdırılırdı. Tarixin yaddaşında Qarabağ atlarının şöhrətinin bütün Yaxın Şərqə kimi yayıldığı bildirilir. Hətta məşhur təmizqanlı qaçağan at cinsinə malik olan ingilislər də Qarabağ atı ilə maraqlanırdılar. Bu atların gözəlliyi Şuşaya gələn səyyahların da diqqətini çəkirdi. 1865-ci ildə Şuşada olan görkəmli rus rəssamı Vasili Vereşşaqin belə yazırdı: "Şuşanın yaxınlığında Mehdiqulu xanın qızının böyük, qədimi evi vardı və bayram tədbirlərinə xüsusi təmtəraq bəxş edən ən bahalı və əzəmətli görkəmli atlar ona məxsus idi. Qeyd edim ki, Qafqazda hərbi qulluqda olan rus general və məmurları da Qarabağ atlarından faydalanırdılar".

### XIX ƏSRİN ORTALARINDA QARABAĞ ATLARI ÜMUMDÜNYA AT SƏRGİLƏRİNDƏ MEDALLAR QAZANIB

Qarabağ atları XIX əsrin ortalarından başlayaraq ümumdünya at sərgilərində iştirak edib. İl ərzində iki dəfə Çadar düzündə atçaparlar arasında yarışlar keçirilir, qaliblərə qiymətli hədiyyələr verilərdi. İbrahim xanın atlarına dünya bazarında tələbat böyük idi. Xurşidbanu Natəvan da atçılıqla fəal məşğul olurdu və onun bütün ölkədə məşhur olan ilxısı vardı. Şairənin Qarabağ atları 1867-ci ildə Parisdə, Moskvada və Tiflisdə ümumdünya kənd təsərrüfatı sərgilərində iştirak edir və hər dəfə də qalib gələrək, qızıl medallarla mükafatlandırılmışdır. 1866, 1869, 1872-ci illərdə Moskvada, 1867-ci ildə Parisdə ümumdünya at sərgilərindən mükafat və meallarla qayıdıb. İştirakçı atların şəkilləri Fransa və Vyanada çap olunan jurnallarda yer alıb.

Tarixi dövrə nəzər salsaq görərik ki, XIX yüzilliyin sonlarında Azərbaycanda feodal sosial-iqtisadi münasibətlərin süquta uğraması, ölkənin çar Rusiyasının tərkib hissəsinə çevrilməsi, həmin dövrlərdə Rusiya, İngiltərə, İran və digər dövlətlərə çoxlu sayda atların, xüsusilə madyanların satılması nəticəsində Qarabağ atlarının zəifləməsi, XX əsrin əvvəllərində baş vermiş bir sıra tarixi hadisələrin bu prosesə təkan verməsi, bütövlükdə bu cinsə yeni yanaşmanı, daha doğrusu, reabilitasiyasını ön plana çəkmişdir. Bunun üçün ilk növbədə ölkədə Qarabağ atlarının resurslarını müəyyən etmək məqsədlə 1926-cı ildə professor İ.İ.Kaluqinin rəhbərliyi ilə ekspedisiya yaradılmaqla respublikanın bölgələrində tədqiqat aparıldı. Ekspedisiya tədqiqatın nəticəsi üzrə belə nəticəyə gəldi ki, guya həmin dövrdə əsl Qarabağ atına rast gələ bilməmişlər. Lakin bu heç bir elmi məntiqə uyğun olmayan, sadəcə yeni sovet ideologiyasının tələb etdiyi kimi, oktyabr inqilabından əvvəl mövcud olmuş xan və bəy zümrələrindən olan zavodçuların, əslində isə, xalqın tarixinə və onun əsrlər boyu yaratmış olduğu maddi-mənəvi sərvətlərə paxıllıq və ikrah hissi ilə yanaşaraq onu heçə endirməkdən başqa bir şey deyildi. Tədqiqatı aparmış ekspedisiyaya Qarabağ atlarını görmək sanki lazım deyildi. Əgər belə olmasaydı, həmin tədqiqatdan 20 il sonra Qarabağ at zavodunun təşkili məqsədilə cəmi bir neçə rayondan 60-dan artıq tipik Qarabağ atının tapılması mümkün olmazdı.



### AĞDAM ATÇILIQ ZAVODU

Qarabağ atçılıq zavodu yaradıldığı zamandan etibarən uğurla fəaliyyətə başladı. 1952-ci ildə 6 baş tipik Qarabağ atı seçilərək Ümumittifaq kənd təsərrüfatı sərgisində iştirak etmək üçün Moskvaya göndərildi. Qarabağ atının Avropaya gəlişi tarixində 1956-cı il də mühüm yer tutur. O vaxt Böyük Britaniyaya səfər edən sovet rəhbəri Nikita Xruşşov kraliça II Elizabetə Ağdam Atçılıq Zavodundan olan "Zaman" adlı Qarabağ atı da bağışlayıb. 1960-1970-ci illərdə respublikada kənd təsərrüfatının ümumi inkişafı, Ağdam Atçılıq Zavodunun maddi-texniki bazasının möhkəmləndirilməsi, cıdır yarışlarına marağın artması Qarabağ atının inkişafına münbit şərait yaratmışdı. Zavod yaradıldıqdan sonra cins daxilində ailə və xətlərin formalaşması, bir sıra Ümumittifaq sərgilərində və yarışlarda Qarabağ atlarının fəal iştirak etməsi məhz həmin illərə təsadüf edir.

### MİLLİ AT CİNSLƏRİNİN BEYNƏLXALQ MİQYASDA TANINMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Məlum hadisələr zamanı 1993-cü ilin iyul ayında Ağdam rayonu erməni təcavüzkarları tərəfindən işğal olunsa da, fədakar atçılar Qarabağ atlarının döyüş bölgəsindən çıxarılmasını təmin etdilər. Döyüş bölgəsindən çıxarılan Qarabağ atları əvvəlcə bir müddət Yevlax rayonundakı "Aran" damazlıq qoyunçuluq təsərrüfatının ərazisində yerləşdirildi. Lakin həmin yerlərin təbii şəraiti Qarabağ atları üçün əlverişli olmadığına görə atlar zavodu Ağcabədi rayonu ərazisindəki Lənbəran qışlağına köçürüldü.

Milli at cinslərinin beynəlxalq miqyasda tanınması üçün ölkəmizdə zəruri addımlar atılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 noyabr 2014-cü il Sərəncamına əsasən, Qarabağ atı cinsinin inkişaf etdirilməsi və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə dövlət büdcəsindən 2,0 (iki) milyon manat ayrıldı. Ölkə başçısının 21 avqust 2015-ci il tarixli Sərəncamına əsasən isə Qarabağ atı cinsinin inkişaf etdirilməsi üzrə həyata keçirilən tədbirlərin yekunlaşdırılması üçün 1,5 milyon manat ayrıldı. Daha sonra Prezidentin 2017-ci il tarixli Sərəncamına əsasən, Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılmasına şərait yaradılması istiqamətində həyata keçirilən tədbirlərin başa çatdırılması "Ağdam Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Atçılıq kompleksinin tikintisi üçün dövlət büdcəsindən 2,0 milyon manat ayrıldı. Bütün bunlarla yanaşı, "Azərbaycan atçılığın inkişafı üzrə dövlət proqramı" təsdiq olunmuşdur.

Xatırladaq ki, Qarabağ atı ilə oynanılan Çövkən oyunu 2013-cü ildə UNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edildi.

Bu gün Qarabağ atları da məğrurdur. 44 günlük Vətən müharibəsindən sonra Qarabağ atları da öz doğma, əzəli torpağına qayıdacaq. Məşhur, dünyaya səs salan Qarabağ atları Cıdır düzünə qalxacaq və tezliklə bu ərazilər at yarışlarının keçiriləcəyi ən möhtəşəm yarış meydanı olacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Brüssel görüşlərində Azərbaycanın maraqlarının tam qorunması İlham Əliyev diplomatiyasının daha bir qələbəsidir

Aprelin 6-da Belçikanın paytaxtı Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti üçtərəfli görüş keçirildi. Bu, Azərbay-



**MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri**

canın Zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyev və Ermənistanın baş naziri arasında keçirilən altıncı görüş idi. Ən əsası isə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün möhkəm zəmin yaradan və 4 saat yarımdan artıq davam edən görüşdə irəliləyişlərdən əldə olunan nəticə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanmasına dair dövlət başçılarının xarici işlər nazirlərinə təlimat verməsi ilə bağlı razılaşmadır. Ən əsas məqam isə, həmişə olduğu kimi, yenə də masadakı şərtləri qalib lider İlham Əliyev müəyyən etdi.

Xüsusi olaraq, bir daha vurğulamaq istərdim ki, Prezident İlham Əliyevlə bütün görüşlərdə olduğu kimi, Paşinyan aprelin 6-da Brüsseldə keçirilən görüşü zamanı da zərbə aldı. Paşinyan bunu bilməlidir ki, bütün müqavimət cəhdləri növbəti yeni zərbə ilə nəticələnəcəkdir. Ermənistan bunu nə qədər tez anlasa, bir o qədər yaxşı olar. Əgər Ermənistan bunu danışıqlar yolu ilə anlamasa, o zaman "Dəmir yumruq" yenidən işə düşə bilər.

Qeyd edək ki, "Brüssel formatı" çərçivəsində ilk görüş 2021-ci il dekabrın 14-də keçirilib və bu danışıqları dəyərləndirən Şarl Mişel də Brüsseldə keçirilən ilk görüşdə tərəflərin bir-birini dinləməyə və bir-birini narahat edən məsələləri, həmçinin prioritetləri, hər iki tərəf üçün həssas olan məsələləri daha yaxşı anlamağa doğru addım atdıqlarını bildirib. Bu görüşün gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər, əldə olunan razılaşmalar İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə siyasi sferada uğurla davam etdirən Azərbaycanın növbəti diplomatik nailiyyəti oldu. Biz bu reallığı Brüssel görüşündə bir daha müşahidə etdik. Uzun sürən danışıqların nəticələri Aİ Şurası rəhbərinin bəyanatında öz əksini tapdı. Hər iki ölkənin Xarici İşlər nazirliklərinin rəhbərlərinə danışıqlara hazırlığa başlamaq tapşırıldı. Əlbəttə, bu, Azərbaycan Prezidentinin sülh müqaviləsi ilə bağlı 5 maddədən ibarət təklifinin qəbulundan sonra mümkün olub. Yəni, xarici işlər nazirləri fəaliyyətlərini bu sənəd əsasında quracaqlar. Burada əsas prinsipial məsələ Azərbaycanın sərhədlərinin və ərazi bütövlüyünün toxunulmazlığıdır. Eyni zamanda, tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması və birinci növbədə, delimitasiya prosesinə başlaması barədə razılıq əldə olundu. Sərhədlərin delimitasiyası və demarkasiyası prosesi artıq yeni müstəviyə keçir. Dövlət sərhədində erməni silahlı qüvvələri tərəfindən yaradılan gərginliyin azaldılması üçün ciddi şans var. Ən əsası isə belə işlər mövcud sərhədlərin tanınması və ərazi iddialarının rədd edilməsi istiqamətində mühüm addımdır.

Sənəddə Azərbaycan üçün xüsusilə ən diqqət çəkən məqam ondan ibarətdir ki, "Dağlıq Qarabağ" ifadəsinə və ya keçmişin qalığı olan Minsk Qrupu həmsədrlik institutuna hər hansı bir istinad yoxdur. Bu isə o deməkdir ki, Avropa İttifaqı da Azərbaycanın yaratdığı postkonflikt reallıqlarını, regiondakı yeni geosiyasi reallıqları qəbul edir. Nəzərə alsaq ki, bu birinci Brüssel görüşündə də belə olmuşdu, o zaman demək olar ki, rəsmi Bakı artıq Qərbdə müəyyən nüfuzlu dairələrin Qarabağla bağlı əvvəlki baxış bucağını dəyişməyi bacardı.

Dövlət başçısı İlham Əliyev müzakirə olunan məsələlərlə bağlı Azərbaycanın mövqeyini bir daha vurğulayaraq Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması kimi məsələləri xüsusi diqqətdə saxladı. Və Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini növbəti dəfə xüsusi diqqətə çatdırdı. Bu fakt da diqqətə çatdırıldı ki, Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıb.

Bu baxımdan da işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstək artırılmalıdır. Bütün bu reallıqlar və əldə olunan nailiyyətlər Azərbaycan Prezidenti İlham Əliyevin illər ərzində yürütdüyü uzaqgörən, məqsədyönlü siyasətin, postmüharibə dövründə isə Azərbaycanın təmkinli mövqe sərgiləyərək bölgədə sülhün bərqərar olması, sərhədlərin müəyyənləşməsi və sülh müqaviləsinin imzalanması üçün bütün tərəflərlə təmaslara, bərabərhüquqlu müstəvidə danışıqlara hazır və təşəbbüslərə açıq müstəqil, konstruktiv siyasət yürütməsinin, bu siyasətin düzgün müəyyənləşdirilməsinin və dinamik inkişaf etdirilməsinin məntiqi nəticəsidir. Brüssel görüşü Cənubi Qafqazda sülhyaratma prosesində irəliyə doğru mühüm addımdır, Aİ Prezidenti Şarl Mişelin sözləri ilə desək, "Biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik". Bir sözlə, Brüssel görüşünü və tərəflər arasında aparılan dörd saatlıq danışıqların nəticələrini Azərbaycan üçün qənaətbəxş qiymətləndirmək olar. Ümumiyyətlə bu görüşün baş tutması, liderlərin təmasları və danışıqlarda Azərbaycanın maraqlarının tam qorunması Prezident İlham Əliyev diplomatiyasının daha bir qələbəsidir.

# Ermənipərəst baş redaktor: "Minsk qrupu dekorasiya kimi istifadə edilir"

"Rusiya delimitasiyanın vacibliyi barədə fikir bildirib, lakin Brüssel memorandumu bunu publik şəkildə vacibə çevirdi. Deməli, siyasi məsuliyyətin tamamı Avropa İttifaqı üzərindədir". SİA xəbər verir ki, bu sözləri NEWS.am-a ermənilərə yaxınlığı ilə seçilən "Regnum" informasiya agentliyinin baş redaktoru Modest Kolerov deyib. "Bununla yanaşı, delimitasiya ilə bağlı danışıqların özü illərlə gedə bilər, bu danışıqlar uzunmüddətlidir. Yalnız bundan sonra delimitasiyanın nəticələri, yəni yerlərdəki demarkasiya ilə bağlı da həmin illər tələb ediləcək. Məhz bundan sonra ritorika üzərində qurulmuş deyil, əsl sülh sazişi mümkündür", deyə Kolerov bildirib.



Onun sözlərinə görə, Azərbaycanın vaxtı çoxdur. Belə ki, özünün əsas suallarını həll edib. Belə ki, İrəvanın vasitəçilik mərkəzini Rusiyanın əlindən Aİ-yə dəyişməsinə baxmayaraq (Azərbaycanın-R.R.) tələsməyə ehtiyacı yoxdur.

Kolerov bir daha deyib ki, vasitəçilik Minsk qrupunda olan Rusiyanın əlindən qrupun digər təmsilçiləri olan Fransanın və ABŞ-ın əlinə deyil, məhz Avropa İttifaqının əlinə keçid edib: "Bəs Avropa İttifaqının buraya hansı aidiyyatı var? O haradadır? ATƏT-in Minsk qrupu Avropa İttifaqı, Birləşmiş Ştatlar deyil və onlar da Avropa İttifaqı deyillər. Yəni Minsk qrupu Fransanın və ABŞ-ın bir hissəsi olaraq dekorasiya kimi istifadə edilir, real vasitəçilik isə Aİ-nin əlinə keçid edir. Bu necədir? Bu hansısa yenilikdir, inqilabi yenilik. Kimsə Ermənistanı Aİ-yə qəbul edir? Yoxsa Ermənistanın Aİ ilə assosiasiyası nə isə verəcək?...", deyə "Regnum"un baş redaktoru sual edib.

O suallarını davam edib: "Avropa İttifaqının neçə min sülhməramlısı Qarabağda dayanır? Sıfır. Ermənistan Avropa İttifaqının vasitəçiliyi ilə nəyə ümid edir? Mən bilmirəm. Nədir? Nəyin xətrinə? Kim-kimə nə söz verib? Heç kim heç kimə heç vaxt söz verməyib".

Onun sözlərinə görə, Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları qarşılığında qazın və neftin nəqlinin Aİ-yə nəqlində mənfi tərəflər əks olunacaq, Azərbaycan isə Avropa İttifaqının neftqaz üzrə sevimli rəfiqinə çevrilir. "Siz demək istəyirsiniz ki, Aİ-nin iqtisadi maraqları baxımından Ermənistan və Azərbaycan bərabərdirlər? Yox. Budur sərhədlərin təbii vasitəçilik imkanları", deyə Kolerov bildirib.

**Rövşən RƏSULOV**

# "Brüssel görüşündə əldə olunanlar sülhə doğru atılan növbəti addımdır"

"Brüsseldə keçirilən üçtərəfli görüş Cənubi Qafqazda sülhə doğru atılan addım kimi dəyərləndirilir. Eyni zamanda, ötən ilin dekabrın 14-də Brüsseldə Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında keçirilən görüşdə mühüm nəticələr əldə olunmuşdur. Bu sülh gündəliyinin davam etdirilməsi üçün aprel ayının əvvəlində keçirilmiş görüş mühüm əhəmiyyət daşıyır". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Onun sözlərinə görə, dekabr ayından ötən dövr ərzində Azərbaycan Ermənistan tərəfinə sülh gündəliyi ilə bağlı 5 maddəlik təklifi irəli sürmüşdür və təkliflər beynəlxalq hüququn norma və prinsiplərinə söykənir: "Cənubi Qafqazda dayanıqlı sülhü və inkişafı dəstəkləyən Azərbaycanın ərazi bütövlüyü, suverenliyi sərhədlərin toxunulmazlığı kimi mühüm prinsipləri özündə ehtiva edir. Brüssel görüşündə mühüm razılıqlar əldə olundu, sülh müqaviləsinin imzalanması ilə bağlı xarici işlər nazirlərinə mühüm tapşırıqlar verildi. Hazırda Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh müqaviləsinin imzalanması ilə bağlı fəaliyyət icra etməlidirlər. Eyni zamanda, Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşməsi istiqamətində komissiyanın yaradılması və təhlükəsizlik zəmanətlərinin verilməsi haqqında yekun konsensus əldə olundu. Aprel ayının sonuna kimi bu iş həyata keçirilməlidir. Eyni zamanda, Avropa İttifaqı iqtisadi və investisiya Cənubi Qafqazda təhlükəsizlik mühitini gücləndirmək istiqamətində təşəbbüslər keçirir. Ermənistan tərəfinə Avropa İttifaqının 2,6 milyard avro qismində yardımı ilə paralel olaraq Azərbaycana da 2,6 milyard avro yardımı nəzərdə tutan istiqamətlər müəyyənləşdirilmiş və bu onu göstərir ki, Avropa İttifaqı burada dayanaqlı inkişafı və xalqların rifahını düşünən mexanizmlər formalaşdırır".



İ.Hüseynov onu da bildirib ki, Brüssel formatında keçirilən görüşlər Rusiya ilə üçtərəfli formatda keçirilən danışıqlar üçün heç bir rəqabət formalaşdırmır: "6 aprel bəyanatında iki dəfə Rusiyanın vasitəçiliyi ilə keçirilmiş danışıqlarda imzalanan bəyanatlara istinad olunur. 10 noyabr və 26 noyabr bəyanatlarında əldə olunan mühüm razılaşmaların davam etdirilməsi üçün əməli addımlar Brüssel görüşündə müzakirə olunmuşdur. Ümumilikdə Brüssel görüşünü çox məhsuldar adlandırmaq olar. Çünki görüş nəticəsində əldə olunmuş bəyanatda "Dağlıq Qarabağ"a status, ATƏT-in Minsk Qrupu kimi ifadələr yer almadı. Ermənistan tərəfi uzun müddətdir ki, bu terminləri siyasi gündəliyə daşımağa çalışır. Lakin Azərbaycanın milli maraqları çərçivəsində proseslər inkişaf etdirilir və Azərbaycanın tələbləri ilə sülh gündəliyi formalaşdırılır. Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı həyata keçirilən fəaliyyət məhz Azərbaycanın irəli sürdüyü 5 maddəlik baza prinsipi əsasında icra olunacaq və milli maraqlarımız konteksində məsələlər öz həllini tapacaq".

**Gülyana**

# GMO məhsullar insanlara və ölkələrə nə vəd edir

## Transgen məhsullar sağlamlığa zərərli, milli və dövlət təhlükəsizliyi üçün təhlükədir

Dünya inkişaf edir, əhali artır və təbii olaraq qidaya tələb də yüksəlir. Müxtəlif hesablamalara görə, düzgün bölüşdürüləcəyi halda indikindən daha çox əhalini təmin edə biləcəyi halda ədalətsiz bölünmə nəticəsində qida ehtiyatları planetdəki bütün insanların ehtiyacını ödəmir. Hesablamalara görə, təkcə ABŞ və Britaniyada zibilliyə atılan yararlı qidalar 1 milyarda yaxın adamı təmin edə bilər ki, dünyada da elə bu qədər adama qida çatmır. Bunu əldə bayraq edən bəzi transmilli şirkətlər biotexnologiya imkanlarından istifadə edərək məhsul bolluğu yaratmağa çalışdıqlarını bəyan edirlər. Lakin hələ 300 milyon nəfər acın olduğu keçən əsrin ortalarında bu texnologiya vasitəsilə dünyada acılığın kökünün kəsiləcəyini iddia etsələr də, hazırda dünyada acların sayı 850 milyondur. Demək, aclığın kökü kəsilmək əvəzinə 3 dəfə artıb. Üstəlik, bu texnologiya daha dəhşətli bəlanı özü ilə gətirir. Bu yazıda həmin bəladan danışacağıq.



### GMO nədir, necə yaradılır?

GMO- Genetik modifikisiya olunmuş məhsullar bir orqanizmdən digərinə DNT köçürmək, yaxud, bir orqanizmə aid DNT-nin biotexnologiya vasitəsi ilə dəyişdirilməsi deməkdir. Orqanizmdəki hər hansı bir funksiya, ya da bir xüsusiyyət genetik olaraq dəyişdirilə və ya genetik modifikasiya ilə başqa bir orqanizmdə fəaliyyət göstərə bilər. GMO-nun yaradılması üçün əvvəlcə bir hüceyrədən sözügedən geni əldə etmək lazımdır. Daha sonra bu gen əvvəlcədən seçilmiş orqanizmdə çoxaldılır. Orqanizm artıq bu yeni geni istehsal etməyə başlayır.

GMO-nu yaradanlar onun bəşəriyyət üçün yararlı olduğunu iddia edirlər. Belə ki, gen dəyişdirilməsi sayəsində məhsullar daha gözəgəlimli və dözümlü hala gətirilir. Həqiqət isə ondan ibarətdir ki, dünyada adı tibb elminə məlum olan və ya olmayan bir çox xəstəliklərə düçar olan insanların sayı hər dəqiqə daha çox artır.

Bu gün Amerika, Kanada, Argentina, Avstraliya, Çin və Cənubi Afrika başda olmaqla bir çox dünya ölkəsində geni dəyişdirilmiş bitkilər istehsal edilir. GMO-nun qadağan edildiyi ölkələr də az deyil, Belarus, Tayland, Yeni Zellandiya, İtaliya, Fransa, İsveç kimi ölkələr də var ki, bu məhsulların ölkəyə giriş və çıxışına, istehsal və istehlakına qadağa qoyulub. Azərbaycan da öz əhalisinin genefondunu və sağlamlığını qorumaq üçün belə qadağalar tətbiq edib.



Artıq bu problemlə bağlı Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ərzaq Təhlükəsizliyi Təşkilatı və beynəlxalq ekoloji təşkilatlar tərəfindən həyəcan təbili çalınır. Bir çox ölkələr insan orqanizmində qarşısıalınmaz dəyişiklərə gətirməsi səbəbindən GMO idxalını qadağan edib.

Qeyd edək ki, hazırda dünya əhalisinin 70 faizindən çoxunun GMO mənşəli məhsullarla qidalandığı ehtimal olunur. Dünya əkinlərinin isə azı 30 faizində trasgen toxumlar əkilir.

### Genetik strukturun dəyişməsi nəyə gətirib çıxarır?

Elmi araşdırmalara görə, geni dəyişdirilən məhsullar insanın immun sistemini zəiflədir. Bu da müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxarır. Adi bir fakt- gen mühəndisliyinin geniş inkişaf etdiyi ABŞ-da əhalinin 70 faizi allergiyadan əziyyət çəkir. GMO-nun qadağan edildiyi İsveçdə isə, belə şəxslərin sayı əhalinin cəmi 7 faizini təşkil edir.

Bir neçə il əvvəl Fransada aparılmış elmi təcrübə GMO qarğıdalının xərçəng törətdiyi sübut olundu. Rusiyada, Almaniyada və sair ölkələrdə də belə araşdırmalar aparılıb və trasngen məhsulların ciddi xəstəliklərə səbəb olduğu ortaya çıxıb.

Genetik təcavüzə məruz qalmış bu məhsullar insan orqanizminin bioloji vəziyyətini və genetik strukturunu dəyişir. Bu sonrakı nəsillərdə özünü daha çox biruzə verir. Bir çox alimlər sonsuzluq hallarının artmasını və digər təhlükəli xəstəliklərin çoxalmasının əsas səbəblərindən biri kimi GMO-nu qeyd edirlər.

GMO təkcə insanın deyil, təbiətin də bioloji strukturunu dəyişir. Bitkilərə müxtəlif heyvan, hətta insan genləri vurulmaqla onları təbii vəziyyətindən çıxarırlar. Nəticədə həmin bitki təbii mineral, vitamin və s. orqanizmə yararlı olan maddələrdən məhrum olur, yalnız çox məhsul vermək və uzun müddət saxlanmaq imkanı qazanır.

Dünyada biznes maraqları hər şeydən üstün olduğundan əsas məsələ budur- tez, az xərclə, çoxlu və davamlı pul qazanmaq. Qlobal şirkətlər GMO ilə immunitet sistemi çökdürülmüş, bioloji olaraq xəstələndirilmiş insanlara çox sayda bahalı dərman növlərini satmaqdan daha çox gəlir götürülür.

GMO immuniteti zəiflədərək bütün mümkün qorxulu xəstəliklər üçün qapıların açılması deməkdir. Həm də söhbət təkcə fiziki xəstəliklərdən getmir. GMO psixologiyanı, şüuru, insani hissləri belə dəyişdirmək gücündədir.

### Ən çox nəyin geni dəyişdirilir?

Hazırda dünyada geni dəyişdirilmiş çox növdə məhsul var. Qarğıdalı, pomidor, kartof, düyü, soya, buğda, balqabaq, günəbaxan tumu, fıstıq, pomidor və bəzi nadir tapılan balıq növləti bu məhsulların başında qərarlaşır. Bunlardan əlavə hazırda banan, moruq, çiyələk, gilas, ananas, bibər, qovun, qarpız da gen dəyişdirilməyə məruz qoyulur.

Qarğıdalı və soya geni dəyişdirilmiş məhsulların başında yer aldığı üçün bu bitkilərdən istehsal edilən törəmə məhsulların istifadə edildiyi bütün məhsullar GMO hesab edilir. Yəni, daha açıq desək, qarğıdalı və soyadan əldə edilən yağ, un, nişasta, qlükoza, zaxaroza, fruktoza tərkibli bütün qidalar GMO-lu hesab edilir. Deməli, bu məhsullardan istifadə edilərək hazırlanan peçenye, pudinq, bitki yağları, uşaq qidaları, konfetlər, şokalad, hazır şorbalar, qidası qarğıdalı olan toyuqlar və s. də GMO-lu olur.

”McDonalds” və bu kimi digər ”fast-food” şəbəkələrinin menyusunun bəzəyi olan hamburger, hot-doq və digər yeməklərdə və şirniyyatlarda istifadə edilən qidalar tamamilə transgen məhsullardır.

Qəribə burasıdır ki, indi bir çox gənc bilmir ki, hansı meyvə hansı fəsildə yetişir, çünki ilin hər fəslində istənilən meyvəni tapmaq mümkündür.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

### GMO-ya qarşı beynəlxalq mübarizə

Dünyada problemin qarşısını almaq üçün çoxsaylı sənədlər qəbul olunub. Bu sənədlər sırasında 1992-ci ildə qəbul olunmuş ”Biomüxtəlifliyə dair konvensiya”nı, bu konvensiyadan irəli gələn 2000-ci ildə qəbul edilmiş və 2005-ci ildə Azərbaycan parlamenti tərəfindən də ratifikasiya edilmiş ”Kartagen protokolu”nu göstərmək olar. Protokolu ratfikasiya etmiş dövlətlər onun tələblərinin həyata keçirilməsi məsuliyyətini üzərlərinə götürürlər. Belə ki, genetik modifikasiya olunmuş orqanizmlərin yayılmasına, genişləndirilməsinə, risklərinin qiymətləndirilməsinə və azaldılmasına nəzarət edirlər. Protokolda ”Bioloji təmizlik evi” deyilən paltformadan istifadə olunur. Kartagen protokolunu ratifikasiya etmiş 153 dövlət bu sahədə gördükləri işlər barədə bu platformada məlumat yerləşdirirlər.




Bundan başqa dünya ölkələrində ictiami müqavimət də güclüdür. 9 fevral 2010-cu ildə 26 ölkəni təmsil edən 233 istehlakçı və fermer qrupu ”Definitive Global Rejection of GM Wheat” protokolu ilə etiraz kompaniyası təşkil etmiş, dünya xalqlarını və fermerlərini bu etiraza qoşulmağa çağırmışlar. Bundan sonra bəzi ölkələrdə GMO qadağan edilmişdir.

### Azərbaycanda GMO ilə bağlı vəziyyət necədir?

GMO məhsullar Azərbaycana 90-cı illərin əvvəllərindən ayaq açıb. Mütəxəssislərin dediyinə görə, hazırda Azərbaycanda qarpız, pomidor, çuğundur və sair məhsulların çoxundan toxum götürmək mümkün deyil. Azərbaycana GMO toxumlar isə ən çox Amerikadan gətirilir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, qanunla qadağan edilməsinə baxmayaraq ölkəmizdə GMO bitkiçiliyi çoxdan tətbiq olunur: ”1998-ci ildən Azərbaycanda GMO məhsulları yetişdirmək üçün ”raondat” adlı maddə satılır. Əgər bu maddə bizdə satılırsa, bu o deməkdir ki, ölkədə genetik modifikasiya olunmuş bitkiçilik də var. Bu maddə Azərbaycanın biomüxtəlifliyinə mənfi təsir edir, təbiətin harmoniyasını pozur. Elə meyvə-tərəvəz əkmək lazımdır ki, kəndli ondan gələn il üçün toxum tuta bilsin. GMO-nun toxumu tutulmur”.

AİB sədri deyir ki, ölkədə GMO tərəvəzlərin payı çox yüksəkdir: ”Azərbaycanda soya tam, qarpız növlərinin 90 faizi, kartofun təxminən 40 faizi, günəbaxan, çuğundur və pomidorların 70-80 faizi GMO mənşəlidir. Mağazalarda satılan sarı düyülər də GMO-dur. Çünki onların toxumlarından növbəti il toxum çıxmır. Bu siyahını davam etdirmək də olar”.

Məlumat üçün bildirək ki, GMO məhsulların idxalının və istehsalının qarşısını almaq üçün mövcud qanunlarda müddəalar var. ”Ekoloji təmiz kənd təsərrüfatı haqqında”, ”Toxumçuluq haqqında”, ”Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” və sair qanunlarda göstərilib ki, geni dəyişdirilmiş məhsulların ölkəyə gətirilməsi, istehsalı və satışı qadağandır.

Qeyd edək ki, əhalinin ekoloji təmiz məhsulla təminatının yaxşılaşdırılması üçün ölkə başçısı tərəfindən müvafiq proqram da təsdiqlənib. Həmin proqrama görə GMO məhsullarının Azərbaycana gətirilməsinə qadağa qoyulub.

### Niyə hansısa xarici şirkətdən asılı vəziyyətə düşməliyik?

Gen mühəndisliyinin kənd təsərrüfatını yeni müstəviyə qaldırmaq imkanında olduğu iddia edildiyindən ölkələr ərzaq təhlükəsizliyini bu yolla təmin etmek istəyirdilər. Lakin ölkələrin əksəriyyəti bu texnologiyadan bəhrələnmək imkanında olmadığından monopollaşma bu sahədə çox sürətlə baş verdi. Bu ölkələr digər ölkələrin ərzaq təhlükəsizliyinə tam nəzarət etmək məqsədi güdürlər. GM edilmiş orqanizmlərin məhsullarını, toxumlarını bütün dünyaya yaymaqla, ölkələri özlərindən asılı vəziyyətə salırlar. Bu isə milli və dövlət təhlükəsizliyi cəhətdən son dərəcə təhlükəlidir.

Ardı Səh. 15

# GMO məhsullar insanlara və ölkələrə nə vəd edir?

## Transgen məhsullar sağlamlığa zərərli, milli və dövlət təhlükəsizliyi üçün təhlükədir

Əvvəli Səh. 14

Həmin korporasiyalar bir il toxum verməsə, bizim kənd təsərrüfatı çox ağır vəziyyətə düşə bilər. Ölkəmizin böyük təbii potensialı var, milyard tonlarla təbii kübrə var, münbit torpaqlar, gözəl iqlim şəraiti,



məhsuldar təbii toxumlar var. Maraqlıdır, bu halda biz niyə hansısa şübhəli xarici şirkətdən asılı vəziyyətə düşməliyik?

Buna görə də, respublikada ölkə başçısının tapşırığı ilə toxumçuluq təsərrüfatlarının yaradılmasını və yerli toxum bazasının qorunub saxlanması istiqamətində digər addımları təqdirəlayiq hesab etmək lazımdır. Biz yerli toxumlarımızı sıradan çıxarılmasına imkan verməməliyik.

Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutunda bitkilərimizin genləri qorunur. Orada zəngin genefond var. Bu İnstitut milli sərvətimizdir və ona yaxşı imkanlar yaradılmalıdır. Yerli təbii toxumlar artırılmalı və geniş tətbiq edilməlidir. Bəs istehlakçılar özünü və ölkəsini necə xilas edə bilər?

-Yerli və təbii məhsullarından istifadə etmək;

-Üzvi kübrələr və təbii yolla becərilən məhsulları almaq;

-Süni ərzaq əlavələrindən və şirinləşdiricilərindən uzaq durmaq- bu məhsulların əksəriyyəti, GMO məhsullardan hazırlanır.

-Markerləşdirilmiş (nişanları olan) məhsulları istifadə etmək- üzərində GMO haqqında məlumat olmayan məhsullara sübhə ilə yanaşmaq.

Bəs GMO ərzaq məhsullarını necə ayırd etmək olar? Geni dəyişdirilmiş məhsulları tanımaq üsulları;

-Çox parlaq, qüsursuz, yarasız, qurdsuz olur

-Normadan böyük olur

-Normal meyvə-tərəvəzdən bərk və dözümlü olur

-Hamısı bir ölçüdə, bir görünüşdə olur

-Günlərlə, bəzən aylarla isti yerdə qalsa belə yumşalmır, çürümür

-Üzəri sanki mumiyalanıb, sürüşkən və yağlı olur

-Mövsümü olmadığı halda satılır

-Pomidor, bibər, xiyar kimi tərəvəzlərin tumu çox az olur və ya heç olmur

-Pomidor, çiyələk, armud kimi yumşaq meyvələrin daha sərt, dişləndikdə bərk səs çıxarır

-Normal rəngindən əlavə rəngi olan meyvələr (pomidorun və çiyələyin qabığının iç tərəfində ağ zolaq)

-Təbii qoxusu olmur.

### GMO-nun təhlükəsi haqda bəzi elmi faktlar

Dünyanın nüfuzlui elmi mərkəzlərində GMO məhsulların təhlükələrini sübut edən xeyli elmi araşdırma aparılıb və dünya mediasında yımlanıb. Burada onlardan bəzilərini qeyd edəcəyik (bundan sonrakı hissədə kayzen.az saytında dərc olunmuş elmi məqalədən istifadə edilib).

GM edilmiş orqanizmlərin təhlükəliliyi haqqında ilk həyəcan təbili çalanlardan biri Amerika alimi Natan Batalion olmuşdur. O, bu məsələni ətraflı araşdıraraq GM edilmiş orqanizmlərin və onların məhsullarının 50 zərərli effekti haqqında kitab da yazmışdı. Onun sonda gəldiyi nəticələr dünya alimlərinin bu məsələ haqqında fikirlərinin ziddiyətli olmasına baxmayaraq, böyük maraq doğurmuşdur.

GM edilmiş soyanın zərərli olduğunu siçanlarla apardığı ciddi elmi təcrübələrlə sübut etmiş Rusiya alimi İrina Yermakova 2005-ci ildə The National Association for Genetic Security-NAGS-ın təşkil etdiyi konfransda məruzə edib. Onun məruzəsindən sonra bu məsələyə münasibət dəyişdi və dünyanın bir çox ölkələrində geniş elmi araşdırmalara stimul yarandı.

Dünyanın məhşur bioloqlarından olan Dr. Puşpa Bargava maraqlı bir araşdırma aparıb. O, Amerikanın 600-dən çox elmi-tibbi jurnalında nəşr olunan məqalələri analiz edərək belə bir nəticəyə gəlir ki, amerikalıların sağlamlığı genetik modfokasiya edilmiş məhsulların və qidaların yaranmasından keçən dövr ərzində ciddi şəkildə pisləşməyə doğru gedib.

1989-cu ildə onlarca amerikalı, qidaların tərkibinə qatılan və Eosinofilia milagiya sindiromuna (EMS) qarşı işlədilən və L-tritofanın genetik modifikasiya edilmiş variantının ərzaq məhsullarının tərkibində işlədilməsi səbəbindən ölmüş və minlərlə insan əlil olmuşdur.

Müəyyən edilmişdir ki, indi Amerika əhalisinin 25%-i ərzaq məhsullarına qarşı həssas olmuşlar, onlarda daha tez-tez qaşınmalar və qırmızı səpkilər olur, 4%, yəni 13 milyon insan ciddi allergiya xəstəliyindən əziyyət çəkir, onların qanında İmmunoglobulin E və ya İgE yüksəkdir. 6%-7% üç yaşına qədər olan uşaqlarda qidadan allergiyanın səviyyəsi çox yüksəkdir və bu, ilbəil artır.

1996-cı ildə Pioneer Hi-Bred kompaniyası mentionin zülalının miqdarını artırmaq üçün Braziliya qozunun genini soya bitkisinə köçürtdü. Bu qoza qarşı bəzi adamlar şok vəziyyətinə düşmə dərəcəsinə qədər allergik oldular. Xoşbəxtlikdən bu soyadan alınan məhsullar bazarlardan tezliklə yığışdırıldı və bədbəxt hadisələrin qarşısı alındı.

Dərin və ətraflı elmi təcrübələr və qarğıdalı ilə məşğul olan insanlarda aparılan yoxlamalar sübut edir ki, qarğıdalıda GMO Bt allergendir. GMO kartof, noxud və soyalar allergenlərlə zəngindir. Siçanlar üzərində aparılan təcrübələrdə GM edilmiş noxudun yüksək allergen olduğu sübut edildi. 1999-cu ildə York laboratoriyasında GM edilmiş soyadan alınan məhsulların allergen olduqları sübut edilmiş və soyanı ilk 10 allergen siyahısına daxil etmişlər.

Xərçəng və degenerativ xəstəliklərdə də GMO-nun ciddi rolu var İnəklərdə südün məhsuldarlığını artırmaq üçün 1993-cü ildə FDA Monsantonun yaratdığı rBGH genini daha da yaxşılaşdırdı. Bu genin inəklərə yeridilməsi südün məhsuldarlığını bir neçə dəfə yüksəltdi. Lakin alimlər xəbərdarlıq etdilər ki, bu gen İGF-1 hormonunun miqdarını 70-1000% artırır. İGF-1 hormonu çox güclü kimyəvi maddədir və insanların yoğun bağırsağında, prostat vəzində və döşdə xərçəng riskini 2,5-4 dəfə yüksəldir.

Kanada alimləri siçanlar üzərində apardıqları təcrübədə İGF-1 hormonunun qalxanabənzər vəzdə toplandığını və daxili orqanları sıradan çıxardığını sübut etmişlər. FDA-nın öz təcrübəsində göstərmişlər ki, bu hormonun təsirindən dalaq 40-46% böyüyür və bu isə leykomiyanın əmələ gəldiyinə işarədir. Nəticədə Avropa İttifaqı, Kanada, Avstraliya və Yeni Zelandiya rBGH geninin inəklərə yeridilməsini qadağan etdi.

BMT-nin beynəlxalq standartlar bürosu (Codex Alimentarius) rBGH geninin yeridilməsinə patenti ləğv etdi və nəhayət ABŞ da 2008-ci ildə bunu qadağan etməyə məcbur oldu. Başqa bir tərəfdən, GM edilmiş bitkilər kanserogen hesab edilən herbisidlərə davamlı orqanizmlərdir.

Bir neçə il bundan əvvəl alimlərə məlum olmuşdur ki, qida məhsullarına əlavə edilən konservantların birlikdə göstərdiyi toksik effekt onların ayrı-ayrı toksikliyindən bir neçə dəfə çoxdur. Hətta toksik olmayan bir neçə kimyəvi maddənin kombinasiyası toksik effekt yaradır. Məsələn, sərinləşdirici içkilərdə tapılan askorbin turşusu və benzonat natrium birləşməsi benzine əmələ gətirdiyindən və bu yüksək dərəcədə kanserogen hesab edilir və xərçəng yaradır. Kanserogen maddələr genetik mutasiyaların intensivliyini və xərçəng hüceyrələrinin əmələ gəlmə riskini artırır.

### GMO virusları və infeksion xəstəlikləri artırır

Viruslar digər virusların və retrovirusların genlərinə qarışa bilir, məsələn, HİV virusu. Bu zaman elə təhlükəli viruslar əmələ gələ bilər ki, onların yayılma sürəti ağılagəlməz dərəcədə böyük olar. Araşdırmaların birində bu tip virusun 8 həftəyə əmələ gəldiyi göstərililir. Bu təcrübənin nəticələrinə əsaslanaraq demək olar ki, genlərin qarışması nəticəsində onların elə kombinasiyaları əmələ gələ bilər ki, nəticədə yeni, heç kimə məlum olmayan çox təhlükəli viruslar yarana bilər. Gen mühəndisliyi zamanı məhz genlərin qarışdırılması prosesi baş verir və belə qarışmış genlər GMO-da külli miqdarda olur.

Yolxucu xəstəliklərin yüksəlişi. 1998-ci ildə The Microbial Ecology in Helth and Disease jurnalında verilən məlumata görə, gen mühəndisliyi infeksion xəstəliklərin artmasında mühüm rol oynayır. Bu, bir neçə üsulla baş verir. Antibiotiklərə davamlılıq GMO-ların hesabına getdikcə artır, yeni və əvvəllər məlum olmayan virus ştamları yaranır və həmçinin insanlarda immun sistemi zəifləyir. Nəticədə infeksion xəstəliklər çoxalır.

Kanada və Avropa İttifaqı rBGH hormon geninin inəklərə yeridilməsi prosedurunu qadağan etmişdir. Bunun əsas səbəblərindən biri də doğulan körpələrdə defektlərin artması olmuşdur. Cornucopia İnistitute Re-



search alimlərinin təcrübələrindən aydın olmuşdur ki, adi soya ilə qidalanan siçanlarda doğuşdan sonra balaların ölümü 10% olursa, GM edilmiş soya ilə qidalanan siçanların balalarının əksəriyyəti doğuşdan sonra 3 həftə ərzində qırılır. GM edilmiş soya ilə qidalanan siçanların balaları nisbətən kiçik olur və onların sonradan bala verməsi mümkün olmur.

Amerika Səhiyyə Departamentinin 2009-cu il 20 tarixli may hesabatında göstərilmişdir ki, doğulan uşaqların getdikcə çəkisi azalır, sonsuzluq və uşaq ölümü faizi getdikcə güclənir. Bu göstəricilərə əsaslanaraq American Academy of Enviromental Medicine (AAEM) həkimlərə təklif etmişdir ki, onlar öz pasiyentlərinə GM edilmiş ərzaqlardan istifadə etməməyi tövsiyə etsinlər. Onlar GM edilmiş ərzaqlara moratorium qoyulmasını, məhsulların markerləşməsini tələb etdilər. AAEM-in gəldiyi nəticələrə görə, GM edilmiş məhsullarla qidalanma immun sisteminin zəifləməsinə, vaxtından əvvəl qocalmaya, sonsuzluğa, insulindən asılılığa və həzm orqanlarının patologiyasına səbəb olur.

Torpağın zəhərlənməsi. GMO əkinlərinin dərmanlara daha az ehtiyacının olduğu vurğulanırdı, lakin bu da əksinə oldu. R.J.Goldburqun məqaləsində göstərilir ki, GM edilmiş bitkilərin yaradılması ilə paralel olaraq toksik maddələrin istehsalı 3 dəfə artıb. GMO-dakı bakteriyalar torpaqda olan üzvi maddələri parçalayır, azotu mənimsəyən göbələkləri məhv edir, torpaqda olan azotu tamamilə mənimsəyir və beləliklə, torpağı tam steril vəziyyətə salır.

Nyu-York Universitetinin professoru Gunther Stotzky təcrübələrində göstərmişdi ki, torpaqda mikroorqanizmlər azaldığından bitkilərin köklərindən ayrılan toksinlər Monarx kəpənəklərinin məhvinə səbəb olmuşdur. Oreqon alimlərinin təcrübələri göstərmişdir ki, GM edilmiş mikroorqanizmləri laborotoriyada torpağa əlavə etdikdə buğda cücərtilərini tamamilə məhv edir. Araşdırmalar göstərir ki, GM məhsulları faydalı həşəratların, o cümlədən monarx kəpənəyinin süfrələrinin kütləvi qırılmasına səbəb olur.

Isveçrənin Dövlət Tədqiqat mərkəzinin alimləri müəyyən etmişlər ki, pambıq qurdlarını yeyən qaytanqanadlıları Bt məhv edir. 1997-ci ildə New Scientist jurnalında verilən araşdırmalardan aydın olmuşdur ki, bal arılarının qırılmasına səbəb GM edilmiş bitkilərin güllərində olan zülallardır.

Virus promotoru (CaMV) qoşulmuş qaragülü DNT-si yeridilmiş kartofla aparılan tədqiqatlar göstərmişdir ki, bunlar məməlilər üçün də zəhərlidir. Bu kartoflarla qidalanan siçanlarda həyati vacib orqanlar, o cümlədən mədəaltı vəz və immun sistemi zədələnir. CaMV özü retrovirusdur. O aktiv olamayan virusları aktivləşdirə və ya yeni viruslar yarada bilir. Odur ki, bioloq Mae Wan-Ho belə bir nəticəyə gəlir ki, CaMV Promiscuosdur və tərkibində CaMV 35S promotoru olan bütün transgen bitkilər və məhsullar bazarlardan çıxarılmalı, onların açıq sınaq təcrübələri qadağan edilməlidir.

### GMO əkinlər ətrafın da genetik zibillənməsinə səbəb olur

GM edilmiş bitkilərin ən təhlükəli effektlərindən biri onların ətrafda olan bitkilərə yoluxaraq onları genetik zibilləməleridir. Amerika və Almaniyada aparılan araşdırmalar göstərdi ki, bu bitkilərin çiçəklərinin tozları külək, su vasitəsilə, quşlarla, həşəratlarla yüzlərlə, minlərlə km məsafəyə yayıla bilir. Odur ki, Berlin məhkəməsində fermerlərin belə ağaclardan istifadəsi qadağan edilmişdi.

Tailandda "Monsanto"nun yarat-



dığı pambıq Bt-nin sınaqları qadağan edilib. Buna səbəb xalq təbabəti üçün 16 faydalı bitkinin genetik zibillənməsi olub.

Amerikada aparılan araşdırmalardan aydın olmuşdu ki, GM edilmiş çiyələklər onlardan 50 m aralıda bitən adi çiyələkləri genetik zibilliyə bilmişdir. GM edilmiş qarğıdalı sahələrinin yaxınlığında əkilmiş günəbaxanların 25-38%-də genetik zibillənmə müşahidə edilmişdi. Genetik zibillənmənin kimyəvi zəhərlənmədən fərqi odur ki, kimyəvi birləşmələr uzun müddətdən sonra bitkilərin orqanizmlərindən kənarlaşdırılır. Lakin genlərlə "zəhərlənmiş" bitkilərdə isə kənarlaşma çox çətin olur və ya heç olmur, hətta nəsildən-nəsilə ötürülə bilir.

Təhlükəli cəhətlərdən biri də ondan ibarətdir ki, GM edimiş tozcuqlar su ilə yayıldıqda onlar su bitkiləri və hətta balıqlar tərəfindən tutula bilir və nəticədə suyun flora və faunası da zibillənir. Bu cür genetik zibillənmənin nəticəsi sonda bioloji müxtəlifliyin məhvi deməkdir.

Qısası insanların və bütün canlı aləmin gen məbədinə toxunmaq çox ağır fəsadlara səbəb olur. Milli genefon zədələnir, təbiət məhv olur, torpaq zəhərlənir, üstəlik ölkənin sterateji iqtisadi təhlükəsizliyi də zərbə altına düşür. Ona görə də, fikrimizcə, Azərbaycan öz təbii resurslarına güvənərək, sağlam, təhlükəsiz və təbii ərzaq istehsalına üstünlük verməlidir. Bunun üçün bütün imkanlar var.

*Elçin Bayramlı*

# İftardan sonra ard-arda çəkilən siqaret orqanizmdə böhran təsiri yaradır



**Ramazan ayında oruc tutan və siqaret asılılığından əziyyət çəkənlərin infarkt keçirmək riski böyükdür. Bunun səbəbi orqanizmin uzun fasilədən sonra siqaret dumanına məruz qalmasıdır.**

Mütəxəssislər iftardan sonra çoxlu siqaret çəkməyin iflic, beyində qansızma, ritm pozuntusu kimi bir çox ciddi xəstəliklərə səbəb olduğunu bildirirlər. Həkim-kardioloq Günay Məmmədova deyir ki, oruc tutarkən insan 15-16 saat ərzində siqaretdən imtina etməli olur. Həmin vaxt orqanizmdə oksigenin səviyyəsi artır və insan özünü daha gümrah hiss edir: "İftardan sonra ard-arda çəkilən siqaret orqanizmdə oksigen səviyyəsinin kəskin şəkildə düşməsinə səbəb olur və böhran təsiri yaradır. Bir siqaretin tərkibində təxminən 0,5 milliqram nikotin var və nikotinin beyinə çatması üçün 15 saniyə vaxt lazımdır. Siqaret spazm, nikotin zəhərlənməsi kimi fəsadlara səbəb olur".

Başgicəllənmə, halsızlıq, ürəkbulanma, bağırsaq hərəkətlərində artım, qusma və ishal kimi vəziyyətlər nikotin zəhərlənməsinin əlamətləridir. "Siqaret tüstüsünün tərkibində karbon monooksid qazı var. Bu isə kəskin damar spazmasına və bunun nəticəsində miokard infarktına aparıb çıxara bilər. Uzun illər siqaret asılılığı olanların onu birdən-birə tərgitməyi mümkün deyil, yəni bir müddət sonra onlara mütəxəssis köməyinə ehtiyacı yaranır",- deyə həkim-kardioloq bildirib.

Ramazan ayı pis vərdişlərdən əl çəkmək üçün çox gözəl fürsətdir. Bu fürsətdən istifadə edib sağlamlığın qeydinə qalmaq barədə düşünmək lazımdır.

# "Oğlum Ronaldonu bir daha görmək istəmədiyini dedi"



**"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldonun telefonu sındırdığı 14 yaşlı autizmli azarkeşin anası oğlunun duyğularından danışıb.**

Qol.az "The Telegraph"a istinadən xəbər verir ki, Sara Kelli bildirib: "İlk dəfə idi ki, birlikdə futbol oynayırdıq. Ceykob "Everton" azarkeşidir və futbol onun həvəsidir. Sadəcə, gördüyü oyuna, qələbəyə, yaşadığı təcrübəyə görə sevinirdi. Ancaq o beş saniyə haqqında düşünürəm - bu günü tamamilə məhv etdilər. Bu, şokedicidir. Ceykob əlil olduğuna görə fikirlərini ifadə etmək onun üçün daha çətindir və baş verənləri tam başa düşməsi üçün daha çox vaxt lazım ola bilər. Mən hadisədən sonra oğlumdan soruşdum: "Mançester Yunayted"in oyununa getmək istəyirsən? Ronaldo bizi matça dəvət edib. O isə dedi: "Yox ana, mən onu bir daha görmək istəmirəm". Bu, məyusedicidir, çünki Ronaldo Ceykobun "Yunayted"lə oyuna getmək istəməsinin səbəblərindən biri idi".

# Maska ləğv edilir?

**Səhiyyə naziri Teymur Musayev Azərbaycanda qapalı məkanlarda maska tələbinin ləğv edilib-edilməməsi mövzusuna münasibət bildirərək məsələyə baxıldığını və yaqin ki, müəyyən qərarların veriləcəyini deyib. Bəs ilkin olaraq hansı istiqamətdə maska tələbi ləğv edilə bilər? Yəni bu məsələ etap-etap həyata keçirilə bilərmi?**

SİA məsələ ilə bağlı həkim-infeksionist Namiq Nəbiyevin fikirlərini öyrənib. Onun sözlərinə görə, bu ilin may ayından maska istifadəsinin qapalı məkanlarda yüngülləşməsinə gedilə bilər: "Lakin maskanın tam ləğv edilməsinin tətbiqini mən də istəmirəm". Həkim həmçinin əlavə edib ki, bəli, maskanın tam ləğvi məsləhət deyil. Çünki koronavirus hələ də dünya ölkələrində mövcuddur.



*Ayşən Vəli*

# Göyərti ilə qidalanmaq orqanizmdəki bir çox xəstəlikləri aradan qaldırır

**Gündəlik rasionda göyərtilərin özünəməxsus yeri var. Tərkibi mikro və makro elementlər, vitaminlər, amin turşuları və qida lifləri ilə zəngin olan göyərtilər orqanizmə müsbət təsir göstərir, hətta bir çox xəstəliklərin qarşısını alır. Yaşıl kələm, kahı, cəfəri, zəncəfilotu, ispanaq, çuğundur yarpağı, pazı, Çin kələmi, tərə və turxun ən faydalı göyərtilər hesab edilir.**

Həkim-diyetoloq Ləman Süleymanovanın bildirdiyinə görə göyərti zülallardan, hətta ət məhsullarından daha əhəmiyyətlidir, çünki onun tərkibində 8 amin turşusu və xlorofil var: "Xlorofil insan orqanizmini oksigenlə zənginləşdirir. Orqanizmdə oksigen kifayət qədər olduqda virus, bakteriya və digər yad cisimlər məhv olur. Göyərti ilə qidalananlarda onkoloji xəstəliklərin yaranması 50-60 faiz azalır. Müxtəlif mineral və vitaminlərlə zəngin olan həmin göyərtilər həzm sisteminə yaxşı təsir edir, beynin inkişafını gücləndirir, sümükləri möhkəmləndirir, toxumaları yaxşılaşdırır. Onlarla qidalanmaq damar divarındakı problemləri də aradan qaldırır, qanı təmizləyir".



Sarımsaq yemək arterial təzyiqə müsbət təsir göstərir, eyni zamanda, dilin üstündə olan ərpi aparır, şüyüd yeyilməsi ur və köp zamanı faydalıdır, keşniş əsəbləri sakitləşdirir. Qida qəbulundan dərhal sonra mədədə şişkinlik əmələ gəlirsə, xörəyi keşnişlə yemək lazımdır.

Ağız qoxusuna qarşı çoxlu cəfəri yemək məsləhət görülür. Cəfəri iyi qovmaqla yanaşı, qanı qatılaşdırır. Onun tərkibində olan K vitamini qanaxmaya meyilli olanlara və qan xərçəngindən əziyyət çəkənlərə faydalı təsir göstərir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**